www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 avqust 2024-cü il Cümə axşamı № 139 (8512) Qiyməti 60 qəpik

**Xəbər**

## Məhkəmə Ekspertizası Şurası yaradıldı

yazısı səh.2-də

# İrəvan üçün dörd aylıq möhlət - sülh, ya da...

Regionda vəziyyəti qarışdırmaq cəhdləri artır; Paşinyan 2024-ün sonunadək barış sazişi üçün şərtləri yerinə yetirmək məcburiyyətindədir; 2025-ci ilin ilk günlərində isə...



yazısı səh.7-də

## Bakı tıxanıb: yol islahatları niyə uğursuzdur? - ekspertlər səbəbləri açıqladı

"Reversiv işarələrdən bütün dünyada istifadə edilir, amma bizdə mütəxəssis olmadığına görə..."

yazısı səh.11-də

**Gündəm**

### Prezidentdən regionun təhlükəsizliyi ilə bağlı mühüm açıqlama - Rusiya amili...



"Xarici siyasətində balansı qoruya bilməyən dövlətlərdən fərqli olaraq Bakı-Moskva münasibətləri bəzi qonşu dövlətlər üçün bir nümunəyə çevrilib"

yazısı səh.5-də

### Neftin qiyməti enir - müvəqqəti tendensiya, yoxsa...

yazısı səh.10-da

### Sabah parlament seçkiləri ilə bağlı təşviqat başlayır

yazısı səh.3-də

### İşdən çıxarılan icra başçısı kimdir? - dosye

yazısı səh.3-də

### Saakaşvili əfv olunsa, Qərb onu yenidən iqtidara gətirə bilər - iddia

yazısı səh.8-də

### "Xaricdə təhsil" fırıldaqçıları - valideynlər tora düşə bilər

yazısı səh.15-də

### Laçında itkin düşən əsgərlərə görə iki hərbçi həbs edilib

yazısı səh.3-də

### Körpəsi olan analara xəbərdarlıq

yazısı səh.11-də

### "Acıq, ev yoxdur, tələbələr pis vəziyyətdədir" - kirayə mənzil bazarından reportaj

yazısı səh.15-də

### Gənclər niyə dəbə uyğun peşə seçir? - tövsiyə

yazısı səh.12-də

### Ağır qəzalı, suda batmış maşınların idxalı yasaqlansınmı - rəy

yazısı səh.14-də



*Fazil Mustafa:*

**"Artıq Qarabağ məsələsi erməni cəmiyyəti üçün prioritet deyil, çünki..."**

yazısı səh.6-da



*Kamran Əsədov:*

**"Böyük xəstəxanalar olan bölgələrdəki universitetlərdə tibb üzrə ixtisaslar açılmalıdır"**

yazısı səh.4-də



Cəfər Hüseynzadə

**Qarət olunan NATO təmsilçimiz: "Tapança ilə başımıza vurub, çantamı və saatımı aldılar"**

yazısı səh.6-da

# Türkiyə-Azərbaycan Universitetinin yeri müəyyənləşdi



## Məhkəmə Ekspertizası Şurası yaradıldı - sərəncam

**Azərbaycanda Məhkəmə Ekspertizası Şurası yaradılıb. Bu barədə Azərbaycan Respublikası Prezidenti İlham Əliyev Sərəncam imzalayıb. Sərəncama əsasən, məhkəmə ekspertizası sahəsində (bundan sonra - müvafiq sahə) dövlət idarəetməsinin və tənzimləməsinin təkmilləşdirilməsi, məhkəmə ekspertizası fəaliyyətinin beynəlxalq standartlara uyğunluğunun təmin edilməsi, habelə müvafiq sahədə vahid standartların hazırlanması və onların tətbiqinin təşviqi, kadr potensialının gücləndirilməsi məqsədilə aşağıdakı tərkibdə məşvərətçi əsaslarla fəaliyyət göstərən Məhkəmə Ekspertizası Şurası yaradılıb:**

Şuranın sədri
Azərbaycan Respublikasının ədliyyə naziri
Şuranın üzvləri:
Daxili işlər nazirinin müavini
Müdafiə nazirinin müavini
Səhiyyə nazirinin müavini
Dövlət Təhlükəsizliyi Xidməti rəisinin müavini
Ali Məhkəmə sədrinin müavini
Baş prokurorun müavini
Vəkillər Kollegiyası Rəyasət Heyəti sədrinin müavini.

Şura sərəncamdan irəli gələn məsələlərlə bağlı təklifləri hazırlayıb altı ay müddətində Azərbaycan Respublikasının Prezidentinə təqdim etməlidir.



## Fransa və İran prezidentləri regiondakı vəziyyəti müzakirə edib

**Fransa prezidenti Emmanuel Makron və İran prezidenti Məsud Pezeşkian arasında telefon danışığı olub.**

APA IRNA-ya istinadən xəbər verir ki, Fransa prezidenti Yaxın Şərqdə gərginliyin artmasından narahatlığını ifadə edib və İrandan təmkinli davranmağı istəyib.

İran prezidenti İsrailə qarşı Tehranın cavab vermək hüququnu özündə saxladığını vurğulayıb və ABŞ və Qərbin İsrailin İranın Dəməşqdəki səfirliyinə hücumu və HAMAS-ın siyasi liderin öldürülməsindən sonra passiv davranışını tənqid edib.

"Prezident Pezeşkian İranın müharibədən çəkinməyi və dünyada sülh və təhlükəsizliyin bərqərar olmasına çalışmağı əsas prinsiplərindən biri hesab etdiyini qeyd edərək, beynəlxalq müqavilələr və qanunlar çərçivəsində öz maraqlarının pozulması qarşısında heç vaxt səssiz qalmayacağını bildirib", - IRNA yazıb.

## Sumqayıtda qadını öz həyətində ilan sancdı - vəziyyəti ağırdır

**Sumqayıtda 58 yaşlı qadını ilan sancıb. APA xəbər verir ki, 1966-cı il təvəllüdlü Həmidova Tərlan Qulam qızını öz həyətində ilan sancıb.**

T.Həmidova saat 15:20 radələrində Sumqayıt Tibb Mərkəzinin Təcili Tibbi Yardım Xəstəxanasına hospitalizasiya olunub.

İlan zəhəri ilə toksiki effekt diaqnozu qoyulan pasiyent zəruri tibbi yardımlar göstərildikdən sonra reanimasiya şöbəsinə yerləşdirilib. Daha sonra vəziyyəti ağır qiymətləndirilən yaralı Kliniki Tibbi Mərkəzə təxliyə olunub.



**Builki tədris ilində fəaliyyətə başlayacaq Türkiyə-Azərbaycan Universitetinin binasının yerləşəcəyi yer məlum olub.**

Universitet Bakının Xətai rayonunda, Bakı Ali Neft Məktəbinin (BANM) Xocalı prospektində yerləşən binasında fəaliyyət göstərəcək.

Artıq tələbə qəbulu ilə bağlı universitetdə tədbirlər həyata keçirilir. Məlumata görə, bu il universitetə 90 tələbənin qəbulu nəzərdə tutulub.

Xatırladaq ki, Türkiyə-Azərbaycan Universiteti (TAU) tələbə qəbulu elan edib. Abituriyentlər 9-19 avqust tarixlərində ixtisas seçimində iştirak etməklə TAU-nun kompüter mühəndisliyi, sənaye mühəndisliyi, qida mühəndisliyi ixtisaslarını seçə bilərlər.

TAU-da tədris prosesinə Türkiyədən Orta Doğu Teknik Universiteti (ODTÜ), İstanbul Tekniki Universiteti (İTÜ) və Haccettepe Universiteti, Azərbaycandan isə Azərbaycan Texniki Universiteti (AzTU) tərəfdaş kimi cəlb olunub. **Report**



## Qeyri-neft-qaz sektorundan vergi daxilolmaları 7 mlrd. manata yaxınlaşıb

**2024-cü ilin yanvar-iyul ayları ərzində İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin xətti ilə dövlət büdcəsinə 10 milyard 272 milyon 795,7 min manat vergi daxil olub.**

"APA-Economics" İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə istinadən xəbər verir ki, qeyri-neft-qaz sektorundan daxilolmalar 6 milyard 944,1 milyon manat təşkil edib. 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə bu sektordan vergi daxilolmaları 778,8 milyon manat və ya 12,6% çox olub.

Qeyd edilib ki, ödənilən vergilərin 67,6%-i qeyri-neft-qaz sektorunun, 32,4%-i isə neft-qaz sektorunun payına düşüb.

## Olmayan uşağa görə aliment təyin edilməsi ilə bağlı cinayət işi başlanıb



**Astara rayonunun Kakalos Ailə Sağlamlıq Mərkəzi və Lənkəran rayon Mamusta ASM-in vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə daxil olmuş müraciət əsasında rayon prokurorluğunda araşdırma aparılıb.**

Bu barədə APA-ya Baş Prokurorluqdan məlumat verilib.

Bildirilib ki, araşdırma zamanı həmin mərkəzlərin vəzifəli şəxsləri tərəfindən vətəndaş Könül Ağayevanın guya 2016-cı ildə uşaq dünyaya gətirməsinə dair rəsmi tibbi sənədlərə bilə-bilə yalan məlumatların daxil edilməsi, bunun əsasında sonuncunun mövcud olmayan həmin uşağa dair qanunsuz olaraq şəhadətnamə və şəxsiyyət vəsiqəsi əldə etməsi və qeyd olunan saxta sənədlərdən istifadə etməklə məhkəmə qətnaməsi əsasında xeyrinə aliment tutulmasına nail olmasına əsaslı şübhələr müəyyən edilib.

Fakta görə Astara Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 313 (vəzifə saxtakarlığı) və 320.2-ci (rəsmi sənədləri, möhürləri, ştampları, blankları saxtalaşdırma, qanunsuz hazırlama və istifadə etmə) maddələri ilə cinayət işi başlanıb.

Hazırda ibtidai istintaq davam etdirilir.



Hakan Fidan

## Türkiyə İsraili Beynəlxalq Ədalət Məhkəməsinə verib

**Türkiyə İsraillə bağlı Beynəlxalq Ədalət Məhkəməsinə müraciət edib.**

APA-nın xəbərinə görə, bunu Türkiyənin xarici işlər naziri Hakan Fidan X hesabında yazıb.

O bildirib ki, ölkəsi Cənubi Afrika Respublikasının İsrailin Yaxın Şərq regionunda soyqırımı törətməsi ilə bağlı iddia ərizəsində tərəf kimi çıxış edəcək:

"Törətdiyi cinayətlərin cəzasız qalmasından cəsarətlənən İsrail gün keçdikcə daha da çox günahsız fələstinlini qətlə yetirir. Soyqırımını dayandırmaq üçün beynəlxaql ictimaiyyət öhdəliyini icra etməli, İsrail və onun tərəfdarlarına lazımi səviyyədə təzyiq etməlidir. Türkiyə bu yolda əlindən gələn hər cür addımı atacaq".



## İki il əvvəl Laçında itkin düşmüş hərbçinin nəşi ailəsinə təhvil verilib

**İki il əvvəl Laçın rayonu ərazisində əlverişsiz hava şəraitində xidmət zamanı istiqaməti itirərək itkin düşmüş iki hərbi qulluqçulardan birin nəşi ailəsinə təhvil verilib.**

APA-nın yerli müxbiri xəbər verir ki, əsgər Məmmədov Fərid Əjdər oğlunun cənazəsi onun doğulub boya-başa çatdığı Ağdam rayon Orta Qərvənd kəndinə gətirilib.

Şəhidin vida mərasimi 8 avqust tarixində Ağdam rayon Quzanlı qəsəbəsində keçiriləcək. O, Quzanlı qəsəbə Şəhidlər xiyabanında dəfn ediləcək.

# Sabah parlament seçkiləri ilə bağlı təşviqat başlayır

## Deputatlığa namizədlər seçicilərlə burada görüşəcək - siyahı

**Sentyabrın 1-nə təyin edilmiş Milli Məclisə növbədənkənar seçkilərdə seçkiqabağı təşviqat üçün ayrılmış görüş yerlərinin siyahısı açıqlanıb. "Yeni Müsavat" xəbər verir ki, yerlər "Sərbəst toplaşmaq azadlığı haqqında" Qanuna müvafiq olaraq ayrılıb. Mərkəzi Seçki Komissiyasının (MSK) rəsmi saytında təşviqat üçün ayrılan açıq və qapalı yerlərin siyahısı dərc olunub. Növbədənkənar parlament seçkiləri ilə əlaqədar seçkiqabağı təşviqatın aparılmasına avqustun 9-dan başlanılacaq, proses avqustun 31-i saat 08:00-a kimi davam edəcək.**



Qeyd edək ki, Prezident İlham Əliyev iyunun 28-də altıncı çağırış Milli Məclisin buraxılması və Milli Məclisə növbədənkənar seçkilərin təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncamla altıncı çağırış Milli Məclis buraxılıb və sentyabrın 1-nə növbədənkənar seçkilər təyin edilib. Mərkəzi Seçki Komissiyasının maarifləndirmə proqramı çərçivəsində müxtəlif statuslu seçki iştirakçıları üçün fərqli istiqamətlər üzrə layihələr davam etdirilir. Qurum parlament seçkilərində deputatlığa namizədlərin seçkiqabağı təşviqatı üçün ayrılmış yerlərin siyahısını açıqlayıb. Mərkəzi Seçki Komissiyasının məlumatında deyilir ki, 125 seçki dairəsində namizədlərin seçicilərlə görüşləri üçün 5113 yer ayrılıb. Onlardan 3259-u açıq məkanlarda, 1854-ü isə qapalı məkanlarda yerləşir. Seçki Məcəlləsinə əsasən, namizədləri 60-dan çox dairədə qeydiyyatdan keçmiş siyasi partiyalar dövlət büdcəsindən maliyyələşdirilən mediada pulsuz efir vaxtı və ya qəzet meydançası alırlar. Bunlar İctimai TV, "Azərbaycan", "Xalq", "Respublika" və "Bakinski raboçi" qəzetləridir. Ancaq bu imtiyaza bütün dairələrdə namizədləri qeydiyyatdan keçmiş hakim Yeni Azərbaycan Partiyası malikdir. Müxalifətyönlü Müsavat və Real partiyalarının müvafiq olaraq 22 və 11 namizədi var. Namizədlər 58 telekanal, radio və digər KİV-də ödənişli əsaslarla təşviqat apara bilərlər. 1 saniyəlik seçkiqabağı təşviqatın qiyməti televiziyada 20-30 manat, radioda 7-25 manatdır.

Çap və onlayn KİV-də reklam sahəsinin qiyməti 1000 manatdan başlayır. Seçkiqabağı təşviqat avqustun 9-da başlayır və avqustun 31-də saat 08.00-da - səsvermənin başlanmasından bir gün əvvəl başa çatacaq. Son məlumatlara görə, 125 yerlik parlamentə 950 namizəd qeydiyyata alınıb. Namizədlərin qeydiyyatı prosesi avqustun 8-də saat 18.00-da başa çatır.

Mərkəzi Seçki Komissiyası Katibliyinin Media və kommunikasiya şöbəsindən o da bildirilib ki, genişmiqyaslı proqrama uyğun olaraq, Mərkəzi Seçki Komissiyası "Müşahidəçilər üçün yaddaş" kitabçası da hazırlayıb. Layihənin reallaşdırılmasında başlıca məqsəd Milli Məclisə seçkiləri izləyəcək müşahidəçiləri məlumatlandırmaq, sərbəst fəaliyyətlərini daha da təkmilləşdirmək və onlara metodiki köməklik göstərməkdir. Azərbaycan, ingilis və rus dillərində hazırlanan nəşrdə Seçki Məcəlləsinin əsas aidiyyəti müddəa və anlayışlarının izahı verilib, müşahidə aparılmasının prinsipləri əks olunub, eləcə də müşahidəçilərin hüquq və vəzifələri aydın şəkildə göstərilib. Yaddaş kitabçası Seçki Məcəlləsi və Mərkəzi Seçki Komissiyasının təsdiq etdiyi təlimat, izah, qayda və digər normativ xarakterli sənədlər əsasında tərtib olunub.

Qeyd edək ki, ümumilikdə 1508 nəfər namizədlik üçün müraciət edib. Onlardan 1462 nəfərin namizədliyinin irəli sürülməsi təsdiqlənib, 1420 nəfərə imza vərəqi verilib. Sonradan 1197 nəfər imza vərəqələrini geri qaytarıb. Heç bir müşahidəçiyə rədd cavabı verilməyib. Milli Məclisə seçkilərlə əlaqədar 27 ölkə və doqquz qurumdan müraciət daxil olub. MSK-dan bildirilib ki, seçkilərlə əlaqədar 18 467 yerli müşahidəçi qeydiyyatdan keçib: **"Onların 938 nəfəri siyasi partiyalar tərəfindən irəli sürülüb. 2 646 nəfər isə 11 QHT-ni təmsil edir. Müraciət edən heç bir müşahidəçiyə rədd cavabı verilməyib"**. MSK sədri Məzahir Pənahov mediaya açıqlamasında bildirib ki, işğaldan azad olunmuş torpaqlardakı seçki məntəqələrinin sayı artırılaraq 55-ə çatdırılacaq. O, həmçinin daimi və müvəqqəti seçki məntəqələrinin hamısının səsvermə gününə tam hazır olacağını bildirib.

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

# İşdən çıxarılan icra başçısı kimdir? - dosye



Tofiq İbrahimov

**Prezident İlham Əliyevin sərəncamı ilə Tofiq Hüseyn oğlu İbrahimov Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.**

Musavat.com Tofiq İbrahimovun dosyesini oxuculara təqdim edir:

Tofiq İbrahimov 1954-cü il yanvarın 1-də Qəbələ şəhərində anadan olub. O, 1970-ci ildə Qəbələ şəhər 1 saylı orta məktəbini, 1975-ci ildə Azərbaycan Dövlət Universitetini (Bakı Dövlət Universitetini), sonra ikinci təhsil kimi Təfəkkür Universitetinin hüquq fakültəsini bitirib.

T.İbrahimov 2004-cü ilin mart ayının 26-da Azərbaycan Prezidentinin sərəncamı ilə Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. O, Azərbaycan Prezidentinin 4 mart 2010-cu il tarixli sərəncamı ilə vəzifəsindən azad edilib.

4 mart 2010-cu ildən 14 aprel 2012-ci ilə kimi Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışıb.

Azərbaycan Respublikası Prezidentinin 14 aprel 2012-ci il tarixli Sərəncamı ilə Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı təyin olunub.

Prezidentin 7 avqust 2024-cü il tarixli Sərəncamı ilə Ağdaş Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad olunan Tofiq İbrahimov Yeni Azərbaycan Partiyasının üzvüdür.

Ailəlidir, üç övladı var.

❑ **Musavat.com**

# Laçında itkin düşən əsgərlərə görə iki hərbçi həbs edilib

**Laçında itkin düşən hərbçilərə görə iki nəfər həbs edilib.**



Firad Əliyev

Bu barədə Musavat.com-a hərbi prokurorun böyük köməkçisi - Hərbi Prokurorluğun mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri Firad Əliyev məlumat verib.

O bildirib ki, Azərbaycan ordusunun hərbi qulluqçuları, əsgərlər Məmmədov Fərid Əjdər oğlu və Abdullayev Firdovsi Mais oğlunun 3 mart 2022-ci il tarixdə Laçın rayonu ərazisində itkin düşmələri ilə əlaqədar Azərbaycan Respublikası Hərbi Prokurorluğunun İstintaq İdarəsində istintaq aparılmış cinayət işi üzrə Babayev Təbriz Rasim oğluna Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 329.2.1-ci, 329.2.2-ci, 329.2.6-cı və 341.3-cü maddələri ilə, Həməşəyev Taleh Möhübbət oğluna isə Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 341.3-cü maddəsi ilə ittiham elan edilmiş və iş baxılması üçün Füzuli hərbi məhkəməsinə göndərilib.

"Füzuli hərbi məhkəməsinin 22.09.2023-cü il tarixli hökmü ilə Babayev Təbriz Rasim oğlu və Həməşəyev Taleh Möhübbət oğlu onlara elan olunmuş yuxarıda qeyd edilən maddələrdə nəzərdə tutulmuş cinayət əməllərini törətməkdə təqsirli bilinərək müxtəlif müddətlərdə azadlıqdan məhrumetmə cəzasına məhkum ediliblər", - deyə məlumatda qeyd edilib.

YENİ MÜSAVAT
N 139 (8512) 8 avqust 2024

# Tibbi ixtisaslara qoyulan məhdudiyyət - agentliyin açıqlamasının üzə çıxardığı acı reallıq

## **Kamran Əsədov:** "Böyük xəstəxanalar olan bölgələrdə universitetlərdə tibb üzrə ixtisaslar açılmalı, kadr hazırlığı həyata keçirilməlidir"

**Təhsildə Keyfiyyət Təminatı Agentliyi iyul ayı üçün diplom tanınma üzrə müraciətlərin statistikasını bəyan edib.**

İyul ayı üzrə müraciət edən 937 nəfərin 754-ü barəsində müsbət qərar verilərək müvafiq şəhadətnamələr təqdim olunub, 183 şəxsin müraciəti isə mənfi qərarla yekunlaşıb.

Ölkələr üzrə müraciətlərin sayına nəzər saldıqda Türkiyədən 346, Rusiyadan 308, Ukraynadan 114, Gürcüstandan 59, Birləşmiş Krallıqdan 16, İtaliyadan 11, Macarıstandan 9, Amerika Birləşmiş Ştatlarından 7, Qazaxıstandan 7, Polşadan 6, Almaniyadan 5, Belarus Respublikasından 5, Çex Respublikasından 4, Çin Xalq Respublikasından 4, Litvadan 4, Niderland Krallığından 4, Pakistandan 4, Belçika Krallığından 3, Estoniyadan 3, Latviyadan 3, Fransadan 2, Koreyadan 2, Avstriyadan 1, Bolqarıstandan 1, Əfqanıstandan 1, İspaniya Krallığından 1, İsveç Krallığından 1, Kanadadan 1, Norveç Krallığından 1, Özbəkistandan 1, Qambiyadan 1, Səudiyyə Ərəbistanı Krallığından 1, Sinqapurdan 1 müraciətin olduğu müşahidə edilir.

Açıqlamanın xüsusi diqqət çəkən məqamı isə tibbi ixtisaslarla bağlıdır.

"Ən çox müraciət olunan ixtisaslara gəlincə, tibb üzrə 153, biznesin idarə edilməsi üzrə 71, iqtisadiyyat üzrə 64, maliyyə üzrə 54, stomatologiya üzrə 37 müraciət qeydə alınıb" - deyə agentlik bildirib...

Azərbaycanda zatən həkim çatışmazlığı var. Olmazmı Azərbaycanda tibb və stomatologiya ixtisasları üzrə təhsildə plan yerləri artırılsın, nüfuzlu və bazası olan universitetlərə bu ixtisasları açmaq qadağası götürülsün və 500-550 bal toplayan abituriyentlər xaricə üz tutmağa məcbur qalmasın?! Zatən 520 bal yığanla 580 bal yığan arasında bilik, savad göstəricisinə görə heç bir ciddi fərq yoxdur, test həm də şans oyunu olduğu üçün hətta ola bilir ki, bəzi 500-550 arası bal yığanlar, məsələn, bəzi 580-630 arası yığanlardan üstün bilik və bacarığa sahib gənclərdir. Ancaq onlar xaricə üz tutmağa məcbur qalır.

Bizdə tibb və stomatologiya ixtisasları yalnız ATU-da və Naxçıvan Dövlət Universitetində mövcuddur, orada da yerlər məhduddur deyə hər il onlarla yüksək - 500-dən çox bal toplamış, savadlı, bilikli, potensiallı abituriyent bu ixtisaslara qəbul ola bilmir, üz tuturlar xaricə. Hansı ki, onlar öz ölkəsində ən azı ödənişli şəkildə tibb təhsili ala bilər.



**"ADTU-nun diplomu praktiki olaraq Türkiyədən və bir-iki MDB ölkəsindən başqa heç yerdə tanınmır, ona görə də..."**

Məsələn, bizdə Sumqayıt Dövlət Universitetində, Gəncə Dövlət Universitetində, Xəzər Universitetində, Qarabağ Universitetində, Türkiyə-Azərbaycan Universitetində elə bu ildən niyə tibb və stomatologiya ixtisasları olmamalıdır?! Axı onların kifayət qədər potensialı var.

**Mövzu ilə bağlı təhsil eksperti Kamran Əsədov "Yeni Müsavat"a danışıb:** "İlk növbədə qeyd edim ki, Azərbaycanda ali təhsilli insanların sayı bir o qədər də çox deyil. 2022-ci əvvəlinə olan rəsmi rəqəmlərə görə, ölkədə 15 yaşdan yuxarı əhalinin hər 1000 nəfərindən cəmi 140 nəfər ali təhsillidir. 10 il öncə bu göstərici 125 nəfərə bərabər idi. Yəni son 10 ildə 15 yaşdan yuxarı əhali arasında ali təhsillilərin sayı 12% artıb.

Rəsmi rəqəmlərə görə Azərbaycan MDB ölkələri arasında əhalinin hər 10 min nəfərinə düşən tələbə sayına görə sonuncudur. 2022-ci ilin əvvəlinə olan göstəriciyə görə, Azərbaycanda iqtisadi fəal əhalinin sayı 5 milyon 300 min nəfərə bərabərdir. Ölkədə ali təhsilli şəxslər iqtisadi fəal əhalinin cəmi 16.6%-ni təşkil edir.

Ali təhsil göstəriciləri ilə bağlı fərqlər cinslər üzrə də müşahidə edilir. Əgər iqtisadi fəal qadınların cəmi 14%-i ali təhsillidirsə, kişilər üçün bu göstərici 19%-ə bərabərdir.

Təhsil hər bir millətin parlaq gələcəyi üçün ən vacib amildir. Təhsil sistemi mükəmməl olan dövlət hər zaman ön cərgələrdə dayanır. Təhsilin bütün sahələrinə diqqət və qayğı ən başlıca prinsiplərindən biri olmalıdır. Azərbaycan reallığında təhsilimizin bəlkə də ən çox büdrəyən və sanki yarımçıq olan sahəsi tibb təhsilidir desək, yəqin ki, yanılmarıq. Bu gün bizim vətəndaşlarımız ən adi bir sağlamlıq probleminin həlli üçün xaricə qaçmalı olur. Bunun fonunda isə təbii ki, obyektiv səbəblər dayanır.

Etiraf etməliyik ki, demək olar bir çoxlarımız yerli həkimlərimizə bəzən haqlı, bəzən isə haqsız yerə etimadımızı itirmişik. Sağlamlığında problemi olan azərbaycanlılar ya Azərbaycanı tərk edib ölkə xaricindəki həkimlərin qəbuluna getmək üçün xərc tökür, ya da Azərbaycana gəlmiş əcnəbi həkimlərin qəbuluna girmək üçün növbələrdə gözləməli olur.

Bütün bunların dərinliklərinə gedərkən bəlli olur ki, Azərbaycanda tibb sahəsində keyfiyyətli təhsil olmadığı üçün gənclərimiz xaricdə təhsil almağa üstünlük verirlər".

**Ekspert qeyd edib ki, vətəndaşlarımızın xarici həkimlərə üstünlük verməsi və xaricdə müalicəyə meyl etməsi bir qədər neqativ haldır**: "Çünki bizim milli səhiyyə sisteminə güvən lazımdır. Çünki nə qədər Azərbaycan vətəndaşları Azərbaycan səhiyyəsinə inam göstərməsələr, istənilən bir xəstəliyin müalicəsi üçün xaricə getsələr, o qədər də bizim səhiyyəmiz geri gedəcək. Ona görə də düşünürəm ki, bu məsələdə vətəndaşlarımız həssas olmalı və Azərbaycan səhiyyəsinin dünyaya inteqrasiya etməsi üçün öz səhiyyəmizə etimad göstərməlidirlər".

**Kamran Əsədovun fikrincə, çıxış yollarından biri Tibb Universitetinin idarəçiliyini azı 10 il müddətinə Türkiyə mütəxəssislərinin ixtiyarına verilməsidir:** "Onsuz da tibb ixtisasını seçənlərin böyük əksəriyyətinin Türkiyədə təhsil almaq meyli çox güclüdür. Bu ilk növbədə onların işini yüngülləşdirər. Kafedralar təkmilləşər, durğunluqdan xilas olarlar. Təcrübə mübadiləsində tibbi praktika əhəmiyyətli dərəcədə güclənə bilər. Türkiyə hazırda bütün elm sahələri üzrə kitab tərcüməsi və yerli müəlliflərin əsərlərinin çapı üzrə dünyada aparıcı yerlərdən birini tutur. Tələbələrə ən müasir ədəbiyyatlardan dərslər keçilər. Bizdə bütün sahələrdə olduğu kimi tibb sahəsində də ədəbiyyat qıtlığı təhsilin keyfiyyətinə mənfi təsir göstərir".

**Ekspert xatırladıb ki, ADTU-nun diplomu praktiki olaraq Türkiyədən və bir-iki MDB ölkələrindən başqa heç yerdə tanınmır:** "Yeni ADTU-nu bitirən şəxs gedib hansısa Avropa ölkəsində işləyə bilmir. Xarici ölkədə tibb təhsili alan şəxs isə həmin diplomla istər Avropada, istər Amerikada və ya dünyanın digər bir tərəfində həkim kimi fəaliyyət göstərə bilər. Deməli, ADTU-nu deyil, xarici dövlətlərin tibb ocaqlarını seçməkdə əsas səbəb diplomun gücü məsələsidir. Əgər hər hansısa bir şəxs xarici dövlətlərin tibb müəssisələrinin diplomu ilə ürəyi istəyən hər bir yerdə sərbəst şəkildə, heç bir problemsiz çalışa biləcəksə, onda təbii ki, xaricdəki təhsilə üstünlük verəcək. İkinci bir məsələ isə təbii ki, odur ki, əgər azərbaycanlı bir həkim xaricdə qalıb fəaliyyətini davam etdirirsə, sözsüz ki, burada ən böyük səbəb onun həmin ölkədə aldığı məvacibdir. Heç kimə sirr deyil ki, dünyanın bir çox ölkələrində həkimlər dövlətin ən varlı təbəqəsi hesab olunur. Hətta bəzi ölkələrdə həkimlər millət vəkillərindən, dövlət məmurlarından qat-qat artıq maaş alırlar.

Ölkədə tibb təhsili verən müəssisələrin sayı azdır. Ali tibb təhsili verən müəssisələr yalnız Bakı və Naxçıvandadır. Digər bir neçə bölgədə orta ixtisas təhsilli tibbi kadr hazırlığı həyata keçirilir.

Ölkədə tibb mütəxəssislərinə ciddi ehtiyac var. Ona görə də bölgə universitetlərində tibb ixtisaslarına qəbul həyata keçirilməlidir. Qarabağ Universitetində, Gəncə Dövlət Universitetində buna yaxşı imkan var.

Tibb təhsilli mütəxəssislər xəstəxanalarda yetişdirilir. Düşünürəm ki, böyük xəstəxanalar olan bölgələrdə universitetlərdə tibb üzrə ixtisaslar açılmalı, kadr hazırlığı həyata keçirilməlidir".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**

# Yolda ətrafa oyuncaq tapança tuşlayan şəxs saxlanıldı




**Sosial şəbəkələrdə paytaxt ərazisində hərəkətdə olan avtomobildə olan sərnişinin əlindəki tapançanı ətrafa yönəltməsini əks etdirən görüntülər polis əməkdaşları tərəfindən araşdırılıb.**

DİN-in mətbuat xidmətindən Musavat.com-a bildirilib ki, həmin avtomobilin sürücüsü və sərnişini müəyyən edilib.

Şirkətlərdən birində kuryer kimi çalışan 2002-ci il təvəllüdlü şəxs və sürücü müəyyən olunaraq polis idarəsinə gətirilib. Məlum olub ki, onun avtomobildən ətrafa yönəltdiyi odlu silaha bənzəyən tapança oyuncaqdır. O, izahatında oyuncağı əyləncə məqsədilə ətrafa yönəltdiyini və bu əməlinə görə peşman olduğunu bildirib.

Qanunvericiliyə uyğun olaraq onlar barəsində müvafiq tədbirlər görülür.

# Prezidentdən regionun təhlükəsizliyi ilə bağlı mühüm açıqlama - Rusiya amili...

## “Xarici siyasətində balansı qoruya bilməyən dövlətlərdən fərqli olaraq Bakı-Moskva münasibətləri bəzi qonşu dövlətlər üçün bir nümunəyə çevrilib”



**Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan və Rusiya arasında mövcud münasibətləri Cənubi Qafqazda təhlükəsizlik faktoru kimi dəyərləndirib. Dövlət başçısı bu barədə Rusiya Federasiyasının Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu qəbul edən zaman qeyd edib.**

“Azərbaycan-Rusiya münasibətləri bəzi qonşu dövlətlər üçün də bir nümunədir” - deyən dövlət başçısı bildirib ki, bunu Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktoru kimi dəyərləndirir.

Rusiyanın regional və daha geniş müstəvidə təhlükəsizlik məsələsində rolu təbii ki, danılmazdır. Son illərdə baş verənlər, xüsusilə Ukrayna müharibəsi fonunda bir daha sübut olundu ki, Rusiya heç də sarsılmış, zəifləmiş, dağılmaq ərəfəsində olan federasiya deyil. Əksinə, onun iştirakı, razılığı olmadan dünyada bir çox prosesləri tənzimləmək mümkün deyil.

Bu xüsusda Azərbaycanın praqmatik davranışları, xüsusilə Rusiya ilə münasibətlərin regional və daha geniş miqyasda təhlükəsizlik faktoruna çevrilməsi ağıllı siyasətin nəticəsidir. O baxımdan ki, Cənubi Qafqaz regionun lider dövləti olan Azərbaycanın Rusiya ilə strateji müttəfiqliyi daha geniş imkanlar açır və regiona aid olmayan güclərin məkrli planlarının baş tutmasına imkan vermir.

**Sabiq maliyyə naziri, siyasi və iqtisadi məsələlər üzrə ekspert Fikrət Yusifov “Yeni Müsavat”a bildirdi ki, Rusiya Avroasiya məkanının hegemon dövlətlərindən biridir:** “Rusiya dünyada ən böyük ərazisi və təbi ehtiyatları olan bir ölkədir. Bu gün Rusiyanın təbii ehtiyatları 76 trliyon dollar səviyyəsində dəyərləndirilir. Müqayisə üçün deyək ki, bu sırada ikinci yerdə dayanan Amerika Birləşmiş Ştatlarının təbii ehtiyatları 45 trliyon dollar səviyyəsində qiymətləndirilir. Rusiya 5889 nüvə başlığı ilə nüvə silahına malik ölkələr arasında birinci yerdədir. Bu sırada Rusiyadan sonra 5244 döyüş başlığı ilə ABŞ, 410 nüvə başlığı ilə Çin gəlir. Rusiyaya Ukraynaya qarşı iki il yarım ərzində aprdığı müharibəyə görə Qərbin 60-dan çox ölkəsinin bir araya gələrək ona tətbiq etdiyi 20 minə yaxın sanksiyalara rəğmən iqtisadi cəhətdən normal inkişaf sürətini qoruyub saxlaya bilib. Bu müddət ərzində Rusiya öz hərbi sənayesini 4 dəfəyə qədər böyüdüb. Bütün bunlarla yanaşı, Rusiya bu gün Yaxın Şərqdə, Afrikada və dünyanın digər bölgələrində hərbi kontingentlər saxlayır və həmin ərazilərdə öz maraqlarını təmin edir.

Mən bu faktları “Rusiya çökür”, “Ukrayna ilə müharibədə Rusiyanın məğlub olması qaçılmazdır” və s. bu qəbildən olan fikirlər səsləndirənlərin diqqətinə çatdırıram. Və dərhal da bildirirəm ki, səsləndirdiyim bu faktlara görə heç kim elə düşünməsin ki, mənim içimdə Rusiya sevgisi var. Əksinə, tarix boyu Azərbaycana qarşı sərgilədiyi çirkin siyasətə görə Rusiyaya nifrət edirəm desəm, bu daha doğru olar. Tarixdə erməni bəlasını bizim başımıza ruslar açıblar, torpaqlarımızı zəbt edib öz ərazilərinə birləşdiriblər, bizim torpaqlarda qondarma erməni dövləti yaradıblar, Azərbaycanı iki yerə parçalayıblar... Bütün bunlar vicdanı qarşısında hesabat verə bilən hər bir azərbaycanlıya Rusiyanı sevməmək üçün yetərli əsaslardır. Ruslara, Rusiyaya bu münasibəti bizdən erməni bəlası nəticəsində şəhid olmuş on minlərlə azərbaycanlının ruhu tələb edir.

Lakin nifrət dolu emosiyalarımız bizə əsas vermir ki, Rusiyanın bugünkü durumunu təhrif edib, oxucularımıza yanlış məlumatlar verək. Biz oxucuya gerçək olanları deməliyik. Rusiyaya olan nifrətimizə söykənib bəzi boşboğazlar kimi “Rusiya çökür və onun dağılmasına sayılı günlər qalır” kimi fikirlər səsləndirərək öz nifrətimizə təsəlli verməməliyik. Rusiya dünən də, bu gün də ayaqdadır. Unutmayaq, Rusiya hələ ki, Ukraynaya qarşı öz hərbi gücünün az bir hissəsindən istifadə edir. Budur həqiqət. Nüvə dövlətinin hərbi gücü dedikdə, onun atom silahını ayrı görmək lazım deyil. Bu yanlış olardı. Rusiya prezidenti artıq bir neçə dəfə Ukrayna ilə müharibədə ona qarşı olan böyük güclərə xəbərdarlıq edərək, “Rusiyanın olmayacağı dünya heç kimə lazım deyil” çağırışı edib. Bu nə deməkdir? Bu o deməkdir ki, dövlətimiz üçün bir təhlükə yaratmağa cəhd etsəniz, bizi nüvə silahından istifadə etməyə məcbur edəcəksiniz. Qərb Putinin söz xatirinə söz demədiyinin fərqindədir və ona görə də mümkün qədər ehtiyatla davranmağa çalışır, Ukraynaya hansısa silahları verir, hansılarınısa verməkdən çəkinir, verdiyi bəzi silahlardan Rusiya ərazisinə qarşı istifadə olunmasına icazə vermir və s.

Sovetlər İttifaqı dağıldıqdan sonra ötən 30 ildən bir qədər artıq dönəmə nəzər salaq. Rusiya ilə konfliktə gedərək “öz haqqını” tələb edən ölkələrin nələr yaşadığını göz önünə gətirək. Gürcüstan Qərbin ağuşunda olmaq istədi, nəticədə Abxaziya və Cənubi Osetiyanı itrdi, Saakaşvili hakimiyyətini isə Rusyaya bağlı İvanaşvili hakimiyyəti əvəzlədi. Azərbaycan rus qoşunlarını öz ərazisindən çıxartmağa qalxdı, əvəzində Qarabağı və ətrafdakı 7 rayonu itirdi. Ukrayna Rusiyaya qarşı çıxmaqla hansı faciələrlə üzləşdi, bu bizim hər birimizin gözləri önündə baş verir. Moldovanı da qarşıda acı aqibət gözləyir. Qazaxıstanda bəzi qüvvələr Nazarbayev hakimiyyətindən sonra baş qaldırmaq istədi, Rusiya Kollektiv Təhlükəsizlik Təşkilatının adı ilə girib orada “nizam yaratdı”. İndi növbə Qərbin küyünə gedərək, Rusiyaya kəllə atan Ermənistanındır. Ermənistan Rusiyaya qarşı çıxmaqla öz dövlətçiliyini itirmək təhlükəsi ilə üz-üzədir. Qərbin şirin vədləri ona kömək edə bilməyəcək. Bütün bu sadaladıqlarımız ortada ikən Azərbaycan hakimiyyəti və onun Prezidenti İlham Əliyev nə etməli idi? Rusiya ilə münasibətləri yaxşılaşdmaq və bundan bəhrələnərək Qarabağ torpaqlarımızı işğaldan azad etmək yeganə doğru seçim idi. İlham Əliyev çox haqlı olaraq belə bir seçim etdi. Qarabağda 44 günlük müharibədəki, hərbi qələbənin kökündə Azərbaycan rəhbərliyinin uğurlu siyasi gedişləri dayanırdı. Realloqları düzgün dəyərləndirməyi bacarmayan siyasətçilər həmişə sonda məğlub durumda qalırlar. Biz bu reallıqları doğru dəyərləndirdik və elə ona görə də torpaqlarımızı işğaldan qurtarıb, ərazi bütovlüyümüzü təmin edə bildik".

**Deputat Bəhruz Məhərrəmovun sözlərinə görə, Azərbaycan üçün Rusiyanın dünya siyasətində yeri çox aydındır**: “Cənab İlham Əliyevin aprelin 22-də Baykal-Amur Magistralının 50 illik yubileyi münasibətilə işgüzar səfəri çərçivəsində Moskvada prezident Putinlə təkbətək görüşü zamanı ifadə etdiyi kimi, "Rusiya Qafqazda və daha geniş coğrafiyada regional təhlükəsizlik üzrə əsas ölkədir və bizim əməkdaşlıq və qarşılıqlı fəaliyyətdən çox şey asılıdır". Eyni zamanda Rusiyanın Azərbaycana yanaşması da kifayət qədər aydındır. Elə həmin görüşdə prezident Vladimir Putinin ilk növbədə Azərbaycan xalqının Ulu öndəri Heydər Əliyev barədə düşüncələri əslində Rusiyanın Azərbaycana münasibətinin təməlində dayanan bazis hesab oluna bilər. Bu gün münasibətlərin xarakterinə, habelə ölkələrimiz arasında münasibətlərin prioritetlərini müəyyən edən müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında 22 fevral 2022-ci il tarixli Bəyannaməyə diqqət etsək, əminliklə deyə bilərik ki, Bakı-Moskva əlaqələri bərabərhüquqlu tərəfdaşlıq, qarşılıqlı hörmət və qarşılıqlı etimada əsaslanır.

Digər tərəfdən, Qərbin bir çox beyin mərkəzlərinin qəti proqnozlarının əksinə, Rusiya sülhməramlılarının Azərbaycandan çox sakit formada çıxarılması, üstəlik bu prosesin dərin mədəni və humanitar əlaqələrdə ehtiva olunan Azərbaycan-Rusiya münasibətlərinə xələl gətirmədən reallaşdırılması artıq regionda müəllifinin cənab İlham Əliyev olduğu yeni geosiyasi konfiqurasiyanın hökm sürdüyünü göstərdi.

Kifayət qədər həssas bir situasiyada Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunun Tehrandan Bakıya səfər etməsi və Prezident İlham Əliyev tərəfindən qəbul edilməsi də ilk növbədə bu kontekstdən şərh olunmalıdır. Çünki Azərbaycan müttəfiqlik münasibətində olduğu Rusiya ilə regionda gedən proseslərlə bağlı mütəmadi təmasları əhəmiyyətli hesab edir. Şoyqunun qəbulu zamanı möhtərəm Prezidentin də dediyi kimi, Bakı bu səfərin ikitərəfli münasibətlərin gündəliyi və qarşılıqlı maraq doğuran məsələlərin, o cümlədən ölkələrimiz arasında imzalanmış sənədlərin və yol xəritələrinin həyata keçirilməsi, təhlükəsizlik, nəqliyyat, energetika, hərbi-texniki, humanitar sahələrdə əməkdaşlığın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığı qənaətindədir. Bu gedişat elə əslində ölkələrimiz arasında müttəfiqlik qarşılıqlı fəaliyyəti haqqında bəyannamənin müddəalarının uğurla həyata keçirilməsi deməkdir.

Ümumiyyətlə, Azərbaycan Respublikası Rusiya ilə münasibətlərə dərin önəm verir. Ulu öndər Heydər Əliyev hələ 22 sentyabr 1993-cü ildə Ali Sovetdə gənclərin nümayəndələri ilə görüşdə qəti bir tezis irəli sürmüşdü ki, “Azərbaycanın Rusiya ilə əlaqələri yüksək səviyyədə olmalıdır”. Dahi Lider XIX və XX əsrdə Azərbaycanın inkişafının Rusiya ilə birbaşa bağlı olması, Avropa elmi və mədəniyyətinin ölkəmizə Rusiya vasitəsilə gəlməsi kimi amilləri iki ölkə arasında əlaqələrin dərinləşdirilməsi üçün mühüm elementlər kimi qiymətləndirirdi. Lakin təəssüf ki, ötən əsrin 90-cı illərində Azərbaycanda hakimiyyəti zəbt etmiş AXC-Müsavat cütlüyünün səbatsızlığı ucbatından Azərbaycan-Rusiya münasibətləri özünün mürəkkəb dövrünü yaşamış, ölkələrimiz arasında əlaqələr yaxın 200 illik tarixinin ən arzuolunmaz səviyyəsinə enmişdi. Ulu öndərin xalqın təkidi ilə yenidən hakimiyyətə qayıdışı isə əlaqələrimizdə dönüşə səbəb olsa da, Rusiyanın özündə vəziyyət, o cümlədən idarəçilikdə böhranın yaşanması prosesi ləngidir və cəhdlər lazımi effektini vermirdi.

Ümumiyyətlə, etiraf etməliyik ki, Rusiya kimi böyük dövlətlərlə münasibətlərdə qızıl ortanı tapmaq şərtdir. Qafqazda isə Moskva ilə münasibətlərdə bu qızıl ortanı taparaq müstəqilliyinə, ərazi bütövlüyünə xələl gətirməyən, bərabərhüquqlu münasibətlər qura bilən yeganə lider İlham Əliyevdir. Nəticə etibarilə, Prezident Əliyev nəinki ən çətin və təhlükəli periodlarda ölkənin ərazi bütövlüyü və suverenliyini qoruyub saxlaya bildi, üstəlik, Rusiya kimi bölgədə ciddi maraqları olan bir supergücün müttəfiqi Ermənistana rəğmən 44 günlük savaşda Azərbaycanın mövqeyinə siyasi dəstək verməsinə nail oldu. Ötən il aprelin 23-də elə Rusiya hərbi kontingentinin gözü önündə Laçın sərhəd-buraxılış məntəqəsini qurdu. Bu, həqiqətən böyük tarixi hadisə idi və ancaq sözün əsl mənasında, müstəqil dövlət bunu edə bilərdi. Bu gün isə əminliklə demək olar ki, iki ölkənin müstəqilliyi, suverenliyi, ərazi bütövlüyü və dövlət sərhədlərinin toxunulmazlığına qarşılıqlı hörmət, eləcə də bir-birinin daxili işlərinə qarışmamaq prinsipləri əsasında müttəfiqlik dövrü başlanmışdır. Hətta xarici siyasətində balansı qoruya bilməyən dövlətlərdən fərqli olaraq Azərbaycan-Rusiya münasibətləri bəzi qonşu dövlətlər üçün bir nümunəyə çevrilib və təsadüfi deyil ki, Prezident İlham Əliyev Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibini qəbul edərkən bu nümunəni Cənubi Qafqazda və daha geniş məkanda mühüm təhlükəsizlik faktoru kimi dəyərləndirdi".

**“Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlunun sözlərinə görə, Azərbaycan bütün qonşularla, o cümlədən Rusiya ilə münasibətlərin inkişafını arzulayır:** “Azərbaycan vətəndaşlarının əksəriyyətinin Rusiyanın Ukraynaya qarşı işğalçı müharibəsinə münasibəti mənfidir, üstəgəl, Moskva uzaq və yaxın tarixdə Azərbaycana da xeyli problem yaradıb, torpaqlarımızın işğalında erməni separatizminə dəstək verib, elə İkinci Qarabağ müharibəsi zamanı da Ermənistanı uzaqmənzilli raketlərlə təmin edib ki, bunu Prezident İlham Əliyev bir neçə dəfə vurğulayıb. Buna baxmayaraq, mövcud reallıqlarla hesablaşmalıyıq. Azərbaycanın ərazi bütövlüyünün və Qarabağ üzərində suverenliyinin bərpasının son mərhələsində Rusiya bizə mane olmadı. Əlbəttə, bunu Rusiyanın başının Ukrayna müharibəsinə qarışması ilə izah etmək olardı. Ancaq hər halda, Rusiya nəticənin Azərbaycanın xeyrinə bitməsinə mane olmadı, üstəgəl, Kreml rusiyalı hərbçilərin Qarabağı tərk etmək vaxtını gözləmədən onları bölgədən çıxartdı. Bu amilin özü də iki ölkə arasındakı münasibətlər tarixinə müsbət amil kimi əlavə olundu. İlham Əliyevin Rusiya Təhlükəsizlik Şurasının katibi Sergey Şoyqunu Bakıda qəbulu zamanı söylədiyi "Azərbaycan-Rusiya münasibətləri bəzi qonşu dövlətlər üçün də bir nümunədir" fikri Cənubi Qafqazın iki ölkəsinə aiddir. Rusiya-Gürcüstan müharibəsi ikincinin torpaq itkisinə səbəb oldu və bugünə qədər iki ölkə arasında diplomatik münasibətlər bərpa olunmayıb. Ermənistan hökuməti isə Rusiyadan uzaqlaşmağa çalışmaqla Kremllə münasibətləri gərginləşdirib. Buna baxmayaraq, Ermənistan hökuməti Rusiyanı ABŞ və ya Fransa ilə əvəzləyə bilmir. Çünki Vaşinqton və Paris sözdə İrəvanı dəstəkləsələr də, Ermənistana təhlükəsizlik təminatı verə bilmirlər. Kasıb Ermənistan Rusiyanın iqtisadi və hərbi zəmində asılılığından qurtula bilmir. İlham Əliyev Azərbaycan və Rusiya arasında mövcud münasibətləri Cənubi Qafqazda təhlükəsizlik faktoru kimi dəyərləndirməkdə haqlıdır. Cənubi Qafqazın əsas dövləti Azərbaycandır. Fransa Azərbaycanla münasibətləri korlamaqla yalnız Ermənistan üzərindən bölgədə möhkəmlənə bilmədi. Bu mümkün deyil. Ona görə Rusiya Cənubi Qafqazda hərbi və iqtisadi gücünü artıran Azərbaycanla münasibətləri üst səviyyədə saxlamağa çalışır. Bu amillərə rəğmən, Rusiyanın regional siyasətini hər zaman diqqətdə saxlamalıyıq. Bu ölkə hər zaman zəifləri əzmək və özünə tabe etdirmək, eyni zamanda güclülərlə hesablaşmaq siyasətini yürüdür. Azərbaycan hər zaman güclü olmalıdır ki, Rusiya bizimlə hesablaşsın".

**Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 139 (8512) 8 avqust 2024

# Qarət olunan NATO təmsilçimiz danışdı

## "Tapança ilə başımıza vurub, çantamı və saatımı aldılar"



Azərbaycanın NATO yanında nümayəndəliyinin rəhbəri Cəfər Hüseynzadə və həyat yoldaşı Brüsseldə qarət edilib.

Musavat.com Sudinfo saytına istinadən xəbər verir ki, cinayətkarlar tapança ilə onların başlarına zərbələr endirib və 90 min avro dəyərində olan Rolex saatlarını qarət ediblər.

Hüseynzadə bildirib ki, avqustun 5-də Brüssel vaxtı ilə saat 15:00 radələrində iki naməlum şəxs Belçikada yaşadıqları evin qarşısında onlara hücum ediblər: "Cinayətkarlar içəri girərək məni tapança və bıçaqla hədələyib, bütün qiymətli əşyalarımı verməyimi tələb edib, çantamı və saatımı götürüblər".

Zərərçəkənlər yüngül bədən xəsarətləri alıblar. Dərhal hadisə yerinə gələn polis araşdırmalara başlayıb. Hüseynzadə həmçinin təhlükəsizlik baxımından onların evlərinin fotoşəkillərinin mətbuatda dərc edilməsinin məqsədəuyğun olmadığını qeyd edib və oğurlanan saatların dəyərinin vurğulanmasından təəssüflənib.

"Təəssüf edirəm ki, mətbuat oğurlanmış saatlarımızın dəyərinə həddindən artıq diqqət yetirir. Bunlar sadə metal modellər idi", - deyə o, APA-ya bildirib.

Azərbaycan səfirliyi Belçika tərəfinə diplomatların müdafiəsi üçün tədbir görülməsi tələbi ilə müraciət edib.

❑ **Musavat.com**

# Revanşistlərin "ölü doğulan" ümidi - Qarabağ məsələsi dünya üçün bitib

## **Ceyhun Məmmədov:** "Oskanyan gündəmdə qalmaq üçün başqa işlərə əl atsın..."

## **Fazil Mustafa:** "Artıq Qarabağ məsələsi erməni cəmiyyəti üçün prioritet deyil, çünki..."





**Əksər ermənilər Azərbaycanın bölgədə yaratdığı reallıqları qəbul etsələr də, "ermənizm" xəstəliyindən qurtula bilməyənlər hələ də mövcuddur. Onlar özlərini "revanşist" sayır və xülyalarla yaşamaqda davam edirlər. Bələlərindən biri də Ermənistanın keçmiş xarici işlər naziri Vardan Oskanyandır. O, növbəti dəfə sərsəmləyib və "Qarabağ məsələsi hələ bitməyib" kimi cəfəng fikirlərlə gündəmə gəlməyə çalışıb. Oskanyan Qarabağ ermənilərinin geri qayıtması məsələsindən danışıb və deyib ki, onların "beynəlxalq zəmanət altında kollektiv şəkildə geri qaytarılması məsələsi ətrafında çox müsbət münasibət var".**

Onun sözlərinə görə, Ermənistan Qarabağ ermənilərinin kollektiv şəkildə qaytarılması məsələsini danışıqların gündəliyinə çıxarsa, beynəlxalq ictimaiyyətdən dəstək olacaq. "Mən bununla bağlı Tayvo Klaarın sözlərinə diqqət çəkirəm. Onun bildirdiyinə görə, Azərbaycanın bu məsələ ilə bağlı öhdəliyi var və bu məsələ gündəmdə olmalıdır. Lakin Klaara görə, Qarabağ ermənilərinin qaytarılması müqabilində Azərbaycan azərbaycanlıların Ermənistana köçməsi məsələsini qaldıra bilər, lakin bu məsələlərin bir-biri ilə qətiyyən əlaqəsi yoxdur", - deyə Oskanyan bildirib.

Bu məsələdə Oskanyanı "fil qulağında yatmış" hesab etmək olar. Çünki Qarabağdan ermənilər könüllü köçüb gedib, baxmayaraq ki, Azərbaycan dinc şəkildə Qarabağda yaşamaq istəyən erməni vətəndaşlara dəfələrlə və ən yüksək şəkildə çağırış edib, təhlükəsizliklərinə təminat da verilmişdi. Lakin onların Azərbaycanda yaşamağa üzü olmadı.

İndi hər hansı beynəlxalq zəmanətdən söhbət gedə bilməz, çünki hazırda reallıqlar başqadır. Əgər hansısa Qarabağ ermənisi dinc şəkildə yaşamaq istəyirsə, buna görə fərdi qaydada yalnız Azərbaycana müraciət edə bilər.

Oskanyanın əsas sərsəmləməsi isə "Klaarın müsahibəsində Qarabağ məsələsinin hələ də həll olunmadığı hiss olunur. Azərbaycan bu məsələni hərbi yolla həll etdiyini düşünürsə, deməli, çox yanılır. Beynəlxalq təminatlar verilməyənə qədər Qarabağ məsələsi həll olunmayacaq" deməsidir.

**Milli Məclisin VI çağırış deputatı Fazil Mustafa mövzu ilə bağlı "Yeni Müsavat"a deyib ki, ermənilər bu mövzu ilə bağlı hansısa yeni siyasi layihələr üzərində düşünürlər, bu gözləniləndir:** "Bəs erməni nə etməlidir? Hansısa şəkildə revanş götürmək barədə düşünməlidir. Amma Azərbaycan elə addımlar atır ki, ermənilərin əsası olmur. Əvvəla könüllü tərk etmiş bir əhali ilə zorla çıxarılmış əhali arasında çox fərq var. Azərbaycan oradan heç kimi zorla çıxarmayıb, könüllü şəkildə tərk ediblər. Ona görə də onlar fərdi qaydada vətəndaş kimi müraciət etsələr, onların bütün hüquqları vətəndaş kimi qəbul olunacaq. Amma belə bir müraciət yoxdursa, Azərbaycan kollektiv şəkildə kimisə ora qaytara bilməz. Kollektiv vətəndaşlıq deyilən bir anlayış yoxdur. Vətəndaşlıq fərdidir. Hər kəs - erməni, yaxud başqa millətin təmsilçisi Azərbaycan vətəndaşlığı üçün müraciət edə bilər. Azərbaycan da buna öz mövqeyini bildirə bilər. Əgər bunun üçün hüquqi əsaslar varsa, təbii ki, normal münasibət bildiriləcək. Əvvəllər orada yaşayıb, sənədləri yerindədirsə, evi varsa, Azərbaycan konstitusiyasına tabedirsə, burada yaşamaq hüquqi əldə edə bilər. Amma kollektiv şəkildə belə bir məsələyə yanaşmaq sərsəm bir düşüncədir. Çünki kollektiv vətəndaşlıq deyilən anlayışın beynəlxalq hüquqda tanıtımı yoxdur. Ona görə də bu kimi məsələlərdə Oskanyan və başqaları siyasi populizm naminə fərqli layihələrin yaradıcısı kimi görünmə naminə çıxışlar edirlər, erməni xalqını ciddi bir problemə yönəldirlər, faciələr yaşanmasına rəvac verirlər".

**F.Mustafanın fikrincə, erməni cəmiyyətində bu çıxışlar dəstəklənmir:** "Artıq Qarabağ məsələsi erməni cəmiyyəti üçün prioritet məsələ olmaqdan çıxıb. Bunu da son seçkilər göstərdi, Paşinyanın rəhbərlik etdiyi partiya bu qədər səs alırsa, deməli, bu elə-belə məsələ deyil. Qarabağ məsələsi prioritet olmadığına görə ona səs verdilər. Əksinə olsaydı, Paşinyanı çoxdan hakimiyyətdən uzaqlaşdırmışdılar. Bu baxımdan da biz öz işimizə baxmalıyıq. Diplomatik və siyasi çağırışlarımızı qətiyyən təxirə salmamalıyıq. Bunu hər zaman diqqətdə saxlamalıyıq ki, bəhanə verməyək. Artıq hər hansı şəkildə ermənilərin Qarabağa qayıdışı məsələsi mümkün deyil. Bu ancaq o kontekstdə ola bilər ki, fərdi qaydada müraciət olsun. Eyni qaydada həm də qərbi azərbaycanlıların qayıdışı məsələsinə paralel şəkildə baxıla bilər. Beynəlxalq müstəvidə əgər müzakirə olunacaqsa, Azərbaycan bütün platformalarda Qərbi Azərbaycan icmasının ora qayıdışı ilə bağlı məsələni aktuallaşdıracaq. Bunun müzakirə edilməsini tələb edəcək".

**Milli Məclisin VI çağırış deputatı Ceyhun Məmmədov da mövzu ilə bağlı "Yeni Müsavat"a fikirlərini bölüşüb:** "Xəstə erməni təfəkküründən xilas ola bilməyən və gündəmdə bu cür sərsəm açıqlamalar verməklə qalmaq istəyən Oskanyan və digərləri anlamalıdır ki, artıq Azərbaycan bu məsələni həll edib. Biz 30 ilə yaxın bir müddətdə münaqişənin sülh yolu ilə həll olunması üçün ciddi-cəhdlər göstərdik. Amma hər dəfə Ermənistanın münaqişəni uzatmağa çalışdığını gördük. Əslində bu gün Ermənistanın yaşadığı faciələrdə Oskanyan kimilərin də çox böyük "əməyi" var. Çox təəssüf ki, onlar həmin ərəfədə bölgəyə sülhün gəlməsi üçün heç bir real addım atmadılar. Əksinə, müharibənin alovlanmasına gətirə biləcək addımlar atdılar. Heç kim erməniləri Qarabağdan çıxarmayıb. Onlar özləri bu əraziləri tərk ediblər. Bu gün heç kim Azərbaycanı bu məsələdə günahlandıra bilməz. Biz Qarabağdan ermənilərin çıxması üçün heç bir addım atmamışıq. Dəfələrlə Azərbaycanın deməsinə baxmayaraq ermənilərin qayıtmasına Ermənistanın hazırkı hakimiyyəti mane olub. Bu məsələni gündəmdə saxlamaq üçün açıqlama verilməsi məsələni həll etmir. Bu ərazilər Azərbaycana məxsusdur, burada uzun illər azərbaycanlılar yaşayıblar, indi də yaşayırlar. Yaxşı olar ki, Vardanyanlar bu cür sərsəmləmələrə son qoysunlar və iki xalq arasında sülh üçün real addımlar atsınlar. Onlar bu cür açıqlamalar verməklə münaqişənin həllinə mane olurlar. Bu münaqişənin tez bir zamanda həll olunması üçün Azərbaycan və dünya ölkələri tərəfindən həyata keçirilən tədbirlərə də mane olur. Oskanyan yaxşı olar ki, gündəmdə qalmaq üçün başqa işlərə əl atsın. Əgər vaxtında onlar Azərbaycanın şərtlərini qəbul etsəydilər, sülh müqaviləsi imzalansaydı, tərəflərin bu qədər itkisi olmazdı. Təəssüf ki, onlar bunu etmədi. Bununla da çox sayda ermənının həyatını itirməsinə səbəb oldular.

Burada başqa bir diqqətçəkən məqam isə Oskanyanın, ümumiyyətlə, azərbaycanlıların qayıtması ilə bağlı məsələyə bu cür yanaşmasıdır. Birmənalı məsələdir ki, mütləq azərbaycanlılar bu bölgəyə qayıtmalıdır. Hələ Qarabağ məsələsindən də əvvəl ermənilər burada yaşayan azərbaycanlıları öz dədə-baba yurdundan vəhşicəsinə, barbarcasına qovublar. Azərbaycan dəfələrlə bu məsələni qaldırıb ki, onlar öz doğma yurdlarına qayıtmalıdırlar. Bunun üçün də bütün addımları atacağıq. Necə olur ki, Ermənistan iddia edir ki, ermənilər qayıtmalıdır, amma azərbaycanlıların qayıtması məsələsinə isə fərqli bir formada reaksiya verirlər. Təbii ki, bu, qəbuledilməzdir".

❑ **Afaq MİRAYİQ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 139 (8512) 8 avqust 2024



# Ətsiz Piti

Zamin HACI
zaminhaci@gmail.com

**Fransa olimpiadasında ingilis üzgüçü yeməyin keyfiyyətindən şikayətlənmişdir. Deyir bizə qurdlu balıq verirlər. Sitat: "Mən ət istəyirəm, mübarizə aparmaq üçün mənə ət lazımdır. Evdə də belə qidalanıram".**

İnsafən, belə qarınqulu şikayətlər əsasən rusdilli və ingilisdilli mediada yayımlanır, buna görə beynəlxalq aləmdə rəy yaranıb ki, çoxu feyk xəbərlərdir, yalan-palandır, fransızların tədbirinə kölgə salmaqdır. Ruslar niyə belə edir, məlum məsələdir. İngilislərin də tarixən fransızlarla arası yoxdur. Həmişə fransızlar bəsit ingilis mətbəxinə lağ ediblər, indi bir növ cavab zərbəsi yeyirlər.

Elə açıqlamanı (burada "acıqlama", "acılama" və ya "acqalma" da yazmaq olardı) verən idmançı ingilis Adam Piti adlı yoldaşdır. Soyadına görə onun Şəkidə böyük hörməti olardı. Kaş vaxtilə biz olimpiadaya müraciət ərizəmizi geri çəkməzdik, indi Adam adam balası kimi təmiz quzu ətindən Şəki pitisi yeyərdi, ora-bura sərt, qandonduran, tükürpədici açıqlamalar da verməzdi.

Söhbət söhbəti açar, bu yerdə bir əski əhvalat yadıma düşdü. Sovetin vaxtında bizim Lerikdə Şirəli Müslümov adlı uzunömürlü yaşayırdı. Daha dəqiqi, SSRİ bu kişinin hesabına guya sovet adamlarının dünyada hamıdan çox ömür sürdüyünü, sağlam yaşadığını reklam edərdi. Beləcə, pambıq "pripiskası", saxta planlar kimi Şirəli kişinin ömrü hər beşillikdə on il artırdı. 1970-ci illərdə Müslümov, təsəvvür edin, 150 yaşı keçmişdi! (Öləndə, səhv etmirəmsə, 158 yaşı vardı).

Uzun sözün qısası, həmin vaxtlar bir gün Şirəli kişini gətirirlər Bakıya, hansısa mehmanxanada 1 həftə saxlayırlar. Deyirlər xarici jurnalistlər üçün mətbuat konfransı verməlisən. Öncədən təlim keçirlər, deyirlər sağlam həyatın, uzun ömrün sirrini soruşsalar "mən ancaq ağartı, qatıq, süd yeyib-içirəm" deyərsən. Uyğun olaraq yazıq Şirəli kişinin qarnını 1 həftə qatıq, dovğa, şor-pendirlə doldururlar.

Vədə yetişir, brifinq başlayır. Bir az oradan-buradan danışırlar, qəfil hansısa əcnəbi jurnalist Şirəli kişini qıcıqlandıran o bədnam sualı verir: "Gələcək arzu-istəkləriniz nədir?" Şirəli kişi artıq dözmür, deyir: "Mən ət yemək istəyirəm! Mənə ət verin, ət!"

Bəli. Ət ciddi məsələdir. Bu temada bir ata sözümüzdə yaxşı deyir: "Verərsən ətdən-mətdən, İşlərəm bərkdən-bərkdən. Verərsən şordan-mordan, İşlərəm ordan-burdan".

Xalqın yaxşı işləməsi, idmançıların medal alması üçün onlara ət vermək lazımdır. Vegetarian, veqan dünya çempionları olurmu? Doğrusu, dəqiq bilmirəm, güman edirəm olmaz. Xiyar-pomidorla, ot-ələf yeməklə nə güləşərsən, nə ağırlıq qaldırarsan. Bəlkə uzağı ceyran kimi qaçmaq olar, ona da çox əmin deyiləm.

Dünyada ət yeməyin statistikasına baxanda da bir çox məsələdən agah olmaq mümkündür. Sizcə, ən çox ətyeyən millət hansıdır? Əlbəttə, amerikalılar. Lap dəqiqi, ABŞ sakinləri. İldə adambaşına 120 kilo əti basırlar. Ona görə hərəsi iki metrə çatır, bel, qarın da filan qədər... Maşallah, dünyanı udmağa hazır iştahları vardır. İkinci yerdə 119 kilo ət istehlakı ilə Küveyt ərəbləri gəlir. Bunları da başa düşürük, nefti satırlar, şeyx kimi yaşayırlar. Üçüncü yerdə Avstraliyadır. Mal-qaranın helikopterlə otarıldığı geniş çöllər kimin əlində olsa kef çəkər.

Bəs ən pis yerdə kimdir? Banqladeş. Təzəlikcə orada xalq üsyana qalxdı, baş naziri qovdular. Çünki bizim kinoda bunun cavabı var: "Acından belə eləyirlər".

Azərbaycan elə pis yerdə deyil. Bir nəfərə ildə 32 kilo ət nuşi-can etməklə dünyada 52-ci yerdəyik. Haradasa ortalarda. Ta bu yediyimiz ətin neçə kilosu təmizdir və piti bişirməyə yarayır, neçəsində qurd var, nə qədərini "Leş Tofiy"dən və hindistanlı camışçı "Balaq Kapur"dan alırıq - onu dəqiq bilmirəm.

Redaksiya ət versə, öyrənərəm.





# Saakaşvili əfv olunsa, Qərb onu yenidən iqtidara gətirə bilər - iddia

## Gürcüstan prezidenti sabiq həmkarının əfvi məsələsini nəzərdən keçirir; "Mişa" Tiflisdə qalacaq, yoxsa...

**Gürcüstan prezidenti Salome Zurabişvili sabiq həmkarı, hazırda həbsdə olan Mixail Saakaşvilinin əfvi məsələsini nəzərdən keçirir. "Yeni Müsavat" xatırladır ki, bunu parlamentin spikeri Şalva Papuaşvili bəyan edib. O qeyd edib ki, 2023-cü ilin oktyabrında S.Zurabişvilinin impiçmenti məsələsi müzakirəyə çıxarılanda Vahid Milli Hərəkat Partiyası layihənin əleyhinə səs verib: "Salome Zurabişvili hazırda məhz Mixail Saakaşviliyə görə öz vəzifəsini qoruyub saxlayır. Təbii ki, kimisə əfv etmək prezidentin səlahiyyətindədir, lakin əminəm ki, dövlət başçısı öz səlahiyyətindən istifadə edib, Saakaşvilini əfv edəcək".**

Gürcüstanın keçmiş prezidenti Mixail Saakaşvili 2021-ci ilin oktyabrında gizli şəkildə sərhədi keçmək ittihamı ilə saxlanılıb. 2022-ci ilin mayında səhhəti pisləşdiyindən Tiflisin özəl klinikalarından birinə yerləşdirilib. Saakaşvili azadlığa buraxılsa, Gürcüstandan çıxması tələbi ola bilər. Belə iddialar da var ki, Saakaşvili azad edildikdən sonra Qərbdən qopmaq kursu götürən indiki hakimiyyətə qarşı proses başlada bilər. Bu ehtimal nə dərəcədə inandırıcıdır? Onun yenidən hakimiyyətə qaytarılması mümkün ola bilərmi? Çünki özü də açıqlamışdı ki, Gürcüstanın taleyi payızda həll olunacaq. Sabiq prezident hesab edir ki, payızda keçiriləcək parlament seçkilərinin nəticələri hər şeyi müəyyən edəcək. Hətta Saakaşvili Gürcüstanda parlament seçkilərinin nəticələrinin elan edilməsindən sonra kütləvi etirazlar keçirilməsi üçün çağırış edib. Seçkilər 2024-cü il 26 oktyabr tarixində keçiriləcək. Saakaşvili öz tərəfdarlarını həmin tarixdən sonra küçələrə çıxmağa çağırıb. Saakaşvili seçkilərə getməyin və onların gedişatına nəzarət etməyin zəruri olduğunu söyləyib və hakimiyyət gürcü xalqının seçimini qəbul edənə qədər etirazların davam etməli olduğunu deyib.

Qeyd edək ki, avqustun 2-də Saakaşvili barəsində sərhədi qanunsuz keçmə ittihamı üzrə həbs qətimkan tədbiri seçilib. Qərar prokurorun təqdimatı əsasında verilib və işə yenidən baxılacağı üçün şahidlərə və məhkəmə istintaqının gedişinə təsir göstərə biləcəyi ilə əsaslandırılıb. Keçmiş prezident 2021-ci il sentyabrın 29-da gəlib, oktyabrın 1-də isə həbs olunub. Bu müddətin 6 aydan az hissəsini həbsdə, qalanını isə xəstəxanalarda keçirib. Gürcüstanın baş naziri İrakli Kobaxidze isə jurnalistlərə deyib ki, uzun müddət həbsdə deyil, özəl klinikalardan birində olan Gürcüstanın eks-prezidenti Mixail Saakaşvilinin cəzaçəkmə müəssisəsinə köçürülməsi ilə bağlı qərarı müvafiq idarələr verməlidir. Baş nazir Saakaşvilinin həbsə qayıtmasının onun üçün maraqlı olmadığını söyləyib.

**"Saakaşvilinin səhhəti yaxşılaşıb". Bunu da Gürcüstanın ədliyyə naziri Rati Breqadze deyib.** "Onun səhhətinin vəziyyəti daim diqqət və nəzarətdə saxlanılır... Şəxsən çox şadam ki, onun səhhəti kəskin şəkildə yaxşılaşıb", - o vurğulayıb. Xatırladaq ki, 56 yaşlı Saakaşvili 2008-2013-cü illərdə Gürcüstan prezidenti olub. 2015-ci ilin fevralından 2016-cı ilin noyabrınadək Ukraynanın o vaxtkı prezidenti Petro Poroşenkonun müşaviri olub. Bir müddət Odessa vilayətinin qubernatoru vəzifəsini icra edib. 2020-ci ilin mayından 2021-ci ilin fevral ayına qədər Ukraynanın Milli İslahatlar Şurasının rəhbəri olub.

Maraqlıdır ki, Gürcüstanın üçüncü prezidenti Mixeil Saakaşvili hazırkı dövlət başçısı Salome Zurabişvilini tənqid edib.

Musavat.com xəbər verir ki, bu barədə o, xüsusi bəyanat yayıb.

Saakaşvilinin sözlərinə görə, Salome Zurabişvilinin Gürcüstan hökumətini tənqid etməsi onun üçün təəccüblüdür.

Halbuki vaxtilə məhz Salome Zurabişvili sabiq prezidentin həbsinə heç bir şəkildə etiraz etməyib.

Saakaşvili Zurabişvilinin məhkəmədən onu susdurmağı xahiş etdiyini də yazıb.

"İndi o, İvanişvilinin məhkəməsindən məni, əsas müxalifət partiyasının liderini susdurmağı tələb edir. Budur onun demokratik platforması? Axı demokratiya, ilk növbədə, ədalət və bərabərlikdir. Biz belə ədalətli və demokratik dövləti necə yarada bilərik?" - deyə Saakaşvili açıqlamasında bildirib.

**Siyasi ekspert Züriyə Qarayevanın fikrincə, Qərb dairələri Gürcüstanda hökm sürən bu vəziyyətdən narahatdır, çünki ikihakimiyyətlilik mövcuddur:** "Hökumət rusmeyilli, prezident qərbpərəstdir. Ona görə rusmeyilli qüvvələri idarəetmə sistemindən tamamilə uzaqlaşdırmağa çalışırlar. İndiki hakimiyyətin - İvanişvilinin Rusiyanın havadarlığı ilə hakimiyyətə gəlməsi timsalında Kremllə gizli əlaqələrin olması danılmazdır. Bu kontekstdə Saakaşvilinin həbsi sırf siyasi xarakter daşıyır. Bundan sonra da hakimiyyət var gücü ilə çalışacaq ki, onu həbsdə saxlasın. Ancaq bu məsələ yalnız Gürcüstan hakimiyyətinin imkanları çərçivəsində deyil. Gürcüstanın Avropa Birliyi qarşısında müəyyən öhdəlikləri var. Bu öhdəliklər Tiflisi çıxılmaz vəziyyətə salmağa davam edir". Onun sözlərinə görə, Saakaşvilinin ölkəsinə dönüşü də təsadüfi vaxtda deyildi.

Emil SALAMOĞLU,
"Yeni Müsavat"

YENİ MÜSAVAT
N 139 (8512) 8 avqust 2024

# Qərb Gürcüstandan əlini üzüb, Ermənistanı forpostuna çevirir - savaşı tətikləyən sensasion gəlişmə...

## Avropa İttifaqının bu ölkə üçün vizasız gediş planının pərdəarxası üzə çıxıb və arxasında hərbi yardım dayandığı məlum olub; eləcə də Aİ-nin partnyoru ABŞ içi silah-sursat və şəxsi heyətlə dolu iki hərbi təyyarəni İrəvana göndərib, qüvvələr İranla sərhədə yerləşdirilib - detallar

**Avropa İttifaqı (Aİ) Ermənistanla viza rejiminin liberallaşdırılması ilə bağlı danışıqların başlanmasını təsdiqləyib. “Yeni Müsavat” qeyd edir ki, iyulun 22-də isə Aİ-nin xarici işlər nazirləri Ermənistana hərbi yardımın ayrılması barədə qərarı təsdiq etmişdilər. Ölkəyə batalyon səviyyəli bir birlik üçün 10 milyon avro dəyərində modul tipli çadır düşərgəsi veriləcək. Satınalma Avropa Sülh Fondu tərəfindən maliyyələşdiriləcək. Qurumun xarici siyasət üzrə rəhbəri Cozep Borrel bu qərarı “Aİ ilə Ermənistan arasında hərbi-texniki əməkdaşlıqda mühüm addım” adlandırıb. Ermənistanın siyasi rəhbərliyi bu qərarı “böyük uğur”, “demokratik dəyərlərin təntənəsi” kimi qiymətləndirərkən, bu ölkənin bəzi uzaqgörən siyasətçiləri həyəcan təbili çalaraq onun ölkə üçün dağıdıcı nəticələrinin olacağını proqnozlaşdırırlar.**

Onların fikrincə, belə bir qərarın qəbulunda şübhəsiz ki, Aİ-nin Cənubi Qafqazda öz hərbi-siyasi təsirini genişləndirmək istiqamətində apardığı geosiyasi hesablamalar mühüm rol oynayıb. Təcrübə göstərir ki, “Avropa Sülh Fondu” deyilən qurum heç də sülh, sabitlik və təhlükəsizlik təşkilatı olmayıb. O, müharibə, təxribat və qanlı toqquşmaları stimullaşdıran bir qurumdur, xüsusilə əgər qurumun xarici siyasət rəhbəri Cozep Borreldirsə... Yeni əslində ermənilər adına sevinmək üçün çox erkəndir. Çünki bu qərarların arxasında Ermənistandan alət kimi istifadəyə zəmin yaratmaq dayanır.

Qərb uzun illərdir Cənubi Qafqazda Rusiyanın mövqelərini zəiflətmək, regiona sahiblənmək, nüfuz etmək üçün çalışır. Bu cür missioner davranışlara Azərbaycanı heç bir zaman alət edə bilmədilər. Bütün planlar de-şifrə edildi, qarşısı alındı. Sirr deyil ki, Qərb bölgədə Gürcüstanı özünün əlaltı dövlətinə çevirmişdi. Məhz Gürcüstan üzərindən regionla bağlı məkrli planlarını icra edirdilər. Lakin artıq Gürcüstan da bu oyunlara qarşıdır və faktiki olaraq Qərblə, Avropa ilə əlaqələrini azaldır, reallıqlara uyğun davranmağa çalışır. Belə bir durumda Aİ-nin Ermənistana qarmaq atdığı və bu dəfə onu tam əlaltı dövlətə çevirmək planı göz önündədir. Ancaq maraqlıdır, bu plan baş tutsa belə, Ermənistan üzərindən hansısa işlər çevirmək inandırıcıdırmı?

Yeri gəlmişkən, ABŞ da Aİ kimi İrəvana hərbi dəstəyi gücləndirir. Bu da tərəflərin Brüssel görüşündə razılaşmalarının nəticəsidir. Həmin görüşdən sonra Borrel demişdi ki, Aİ və ABŞ müttəfiqlər olaraq Ermənistana dəstəyi birgə həyata keçirməlidirlər. İndisə bunun əlamətləri görünməkdədir. Belə ki, “Flightradar” qlobal uçuş izləmə xidmətinin məlumatına görə, avqustun 2 və 3-də ABŞ-ın Rumıniya və Yaxın




Şərqdəki hərbi bazalarından Ermənistanın “Zvartnots” hava limanına doğru 2 hərbi təyyarə qalxıb. Caliber xəbər verir ki, ABŞ Silahlı Qüvvələrinə məxsus “Boinq C-17" hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklərlə birlikdə Zvartnots hava limanına gəlib. Aprelin 5-də Brüsseldə imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğun olaraq, Ermənistan silahlı qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnika gətirilib. Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən mini-hücum pilotsuz təyyarələri, kiçik ölçülü minalar və digər döyüş sursatları da bura daxildir.

Məlumata görə, bundan əvvəl ABŞ Ermənistan xüsusi təyinatlıları üçün bu sursatlardan istifadə üzrə təlimlər keçirib, bundan sonra Ermənistan tərəfi silahları real şəraitdə sınaqdan keçirmək üçün Kəlbəcər istiqamətində Azərbaycan Ordusunun bölmələrinə qarşı hərbi təxribat törədib. Daha sonra, yuxarıda qeyd etdiyimiz kimi, ABŞ hərbi yük təyyarələri ilə Ermənistana külli miqdarda silah və sursat gətirilib. Bu silahların yerli relyef və hərbi şəraitə uyğunlaşdırıldığı da bildirilir. Bu zaman AB missiyasının Azərbaycan Ordusunun mövqeləri ilə bağlı topladığı kəşfiyyat məlumatlarından istifadə edilib.

İki təyyarədən biri İran ərazisindən atılan raketlərin və digər təyyarələrin trayektoriyalarını izləyən xüsusi alətlər daşıyıb. Bu zaman İran ərazisindən İsrailə mümkün hücum riski xüsusilə nəzərə alınıb. Gətirilən qurğular Ermənistanın İranla sərhədində yerləşdiriləcək. Ancaq bu hamısı deyil. ABŞ təbii ki, bu missiyanı erməni hərbçilərinə həvalə etməyib, bu cihazları idarə edəcək 30-50 nəfəri çatdırıb. Rusiya və İranın diqqətini İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə cəlb etməmək üçün hərbçilər diqqətlə seçilib - onların əksəriyyəti Amerika ordusunda xidmət edən erməni əsilli ABŞ vətəndaşlarıdır, həmçinin postsovet ölkələrindən ABŞ-a köçmüş slavyan və qafqazlı insanlardan ibarət şəxsi heyət Ermənistan silahlı qüvvələrinin geyim forması ilə təchiz olunub və Ermənistan ordusunun Zəngəzurdakı hərbi bazasında yerləşdirilib.

Professor Qabil Hüseynlinin “Yeni Müsavat”a bildirdiyinə görə, Qərb Ermənistanı əzizləməklə heç nəyə nail olmayacaq. Onun fikrincə, Ermənistana hərbi yardımlar regionda yalnız vəziyyəti gərginləşdirə və eskalasiya həddinə çatdıra bilər. Professor ABŞ və Aİ-nin Ermənistanı silah-sursatla təmin etməkdənsə, sülh müqaviləsini imzalamaq üçün ona təzyiq göstərməyə çağırır: “Bu addımlar bölgədə qarşıdurmaya səbəb ola bilər. 44 günlük müharibədə ordusu darmadağın olan Ermənistan indi həvəsləndirilir və Qərbdən verilən dəstəklə revanş olacağına ümidlənir. Amma burada ikinci vacib məqam ondan ibarətdir ki, Avropa Birliyi və ABŞ bu yardımlarla Ermənistanı Rusiyanın caynağından qoparmağı hesablayıb. Yeni təkcə bizə qarşı atılan addımlar deyil. Çünki Ermənistan yenə KTMT təlimlərini boykot etdi, əvəzində amerikalılarla birgə hərbi təlimlərdə iştirak edəcəklər. O nöqteyi-nəzərdən düşünürəm ki, Ermənistana olan yardımlar və verilən dəstək həm regionda Qərbin təsirlərinin möhkəmlənməsinə hesablanıb, həm Rusiyanın Cənubi Qafqazdan sıxışdırılıb çıxarılması məqsədi güdür, həm də bu davranışlar istər-istəməz strateji qarşıdurmanı gücləndirməklə eskalasiya risklərini artırır”.

**Siyasi ekspert Fuad Əliyevin sözlərinə görə, Qərb Gürcüstandakı məğlubiyyəti Ermənistanla kompensasiya etməyə çalışır. Onun fikrincə, Tiflis üzərindən layihə baş tutmadısa, İrəvanla qeyri-mümkündür, çünki Ermənistanın Rusiyadan asılılığı Gürcüstandan daha çoxdur:** “Gürcüstanın Qara dənizə çıxışı və Avropaya açılan Türkiyə qapıları var. Ermənistan isə Türkiyə ilə quru sərhədləri bağlı olan və Gürcüstandan çıxış əldə edən ölkədir. Bu da onu iqtisadi cəhətdən asılı vəziyyətə salıb. Başqa sözlə desək, Ermənistan qədər Rusiyaya bağlı ikinci postsovet respublikası yoxdur. Qərb isə məhz bu ölkəni təsadüfi seçməyib və Rusiyanın forpostu olduğunu yaxşı görə bilir. Amma Paşinyan proyekti də sona qədər alınmayacaq”. **F.Əliyevə görə, Avropa Rusiyanın Ermənistandakı təsir imkanlarını tam hesablaya bilməyib:** “Hə, razıyam ki, son illərdə ABŞ və Avropa Birliyi İrəvanda xeyli dərəcədə möhkəmlənməyi bacarıb, lakin gəlin unutmayaq ki, Ermənistanın dəmiryol xətlərindən tutmuş əksər şirkətlərinə qədər ruslara məxsusdur, sərhədlərini də hələ ki rus hərbçiləri qoruyur. Avropadan gələcək 5-10 qəpiklə nə edə biləcəklər? Hətta xatırlayıram ki, Rusiya prezidenti müqayisə aparmışdı və Avropanın Ermənistana verdiyi iqtisadi bəhrə ilə öz ölkəsinin faydalarını bir tərəziyə qoymuşdu, kəskin bir fərq ortaya çıxmışdı. O baxımdan Ermənistanın iqtisadi və hərbi sahələrinə edilən yatırımlarla bu ölkəni tamamilə Rusiyanın çətiri altından çıxarmaq mümkün olmayacaq”.

**❑ Emil SALAMOĞLU,
“Yeni Müsavat”**

# Filippin, Kanada, ABŞ və Avstraliya ilk birgə hərbi təlimə başladı



**Filippin, Kanada, ABŞ və Avstraliya öz qüvvələri arasında qarşılıqlı fəaliyyət qabiliyyətini artırmaq üçün Cənubi Çin dənizində hərbi təlimə başlayıb.**

APA “Reuters”ə istinadən xəbər verir ki, bu barədə dörd ölkə birgə bəyanat yayıb.

Dəniz və hərbi hava qüvvələrinin iştirak etdiyi iki günlük təlim dörd ölkənin iştirakı ilə ilk dəfədir ki, keçirilir.

Onlar Cənubi Çin dənizində naviqasiya və uçuş azadlığı hüququnu müdafiə etdiklərini bildirərək, dəniz və hava qüvvələrinin Manilanın 200 dəniz mili eksklüziv iqtisadi zonasında əməkdaşlıq və qarşılıqlı fəaliyyət qabiliyyətini artırmaq üçün birlikdə fəaliyyət göstərəcəklərini bildirib.

“Biz ümumi dəniz problemlərini həll etmək məqsədilə birlikdəyik və beynəlxalq hüquqa və qaydalara əsaslanan nizam-intizamı qorumaq üçün birgə sədaqətimizi vurğulayırıq”, - bəyanatda deyilir.

Qeyd edək ki, Bruney, Malayziya, Filippin, Tayvan və Vyetnamın iddialarına baxmayaraq, Çin Cənubi Çin dənizinin böyük hissəsinin onun ərazisi olduğunu iddia edir.

Manila və Pekin Cənubi Çin dənizində dəfələrlə toqquşub, tərəflər bir-birilərini gəmilərə qarşı aqressiv davranışda və dəniz mühitinə ziyan vurmaqda ittiham ediblər.

# İran və Böyük Britaniya XİN rəhbərləri arasında telefon danışığı olub




**Böyük Britaniya xarici işlər naziri Devid Lemmi və İran xarici işlər naziri vəzifəsini icra edən Əli Bağeri arasında telefon danışığı baş tutub.**

APA xəbər verir ki, bu barədə İran XİN-in mətbuat xidməti məlumat yayıb.

Bildirilib ki, telefon danışığı zamanı nazirlər regiondakı son vəziyyəti müzakirə ediblər.

İran XİN rəhbəri İsraili regionda qeyr-sabitlik yaratmaqda ittiham edib.

# Neftin qiyməti enir - müvəqqəti tendensiya, yoxsa...

## ABŞ və Çindən gələn statistik məlumatlar hər iki nəhəng iqtisadiyyatda neftə tələbin azalması ilə bağlı ehtimalları kəskin artırmaqla dünya bazarını neqativə kökləmiş oldu



**Bu həftənin əvvəlində dünya fond bazarlarında qeydə alınan kəskin enişlə eyni vaxtda qiymətlərin düşməsindən sonra neft bazarında vəziyyət bir qədər sabitləşib. 83 dollardan 76 dollara qədər ucuzlaşan Brent markalı neft avqustun 7-də 78 dollara qədər bahalaşıb.**

Neft bazarında qiymətlərin düşməsinin əsas səbəbi kimi dünyanın iki ən böyük iqtisadiyyatına malik ölkələrdən - Çin və ABŞ-dan gələn xəbərlər göstərilir. Belə ki, Çinin Milli Statistika İdarəsinin (NSO) hesabatına əsasən? bu ilin ikinci rübündə ölkədə 4,7 faiz iqtisadi artım qeydə alınıb. Bu, 5,3 faizlik artımın olduğu birinci rüblə müqayisədə xeyli azdır. Ümumilikdə ilin birinci yarısında Çin iqtisadiyyatında 5 faizlik genişlənmə qeydə alınıb ki, bu da gözləntilərin altında olan göstəricidir.

İyul ayı üzrə rəsmi statistikanın açıqlanmasından sonra aydın oldu ki, Çin iqtisadiyyatında artımın zəifləməsi davam edir. Belə ki, iyulda ölkənin istehsalat sektorunda satınalma menecerləri indeksi (PMI) ayında 49,4 bəndə qədər azalıb. Əvvəlki ay göstərici 49,5 bənd olmuşdu. Bundan əlavə, bu ilin yanvar-iyun aylarında Çin iqtisadiyyatına birbaşa xarici investisiyaların (XBİ) həcmi ötən ilin eyni dövrü ilə müqayisədə 29,1 faiz azalaraq 498,91 milyard yuana (68,7 milyard dollar) düşüb.

Avqustun 1-də məlum olub ki, iyulda ABŞ-ın istehsal sektorunda (ISM Manufacturing) işgüzar aktivlik indeksi iyundakı 48,5 bənddən 46,8 bəndə qədər azalıb və 2023-cü ilin noyabrından bəri ən aşağı səviyyəyə düşüb. Analitiklərin konsensus proqnozu 48,8 bəndədək artım nəzərdə tuturdu.

ABŞ-dan daha bir bədbin məlumat məşğulluq sahəsindən açıqlanıb. ABŞ Əmək Nazirliyinin açıqladığı statistikadan məlum olub ki, iyul ayında ölkə iqtisadiyyatında iş yerlərinin sayında 114 min artım qeydə alınıb. Yenidən işlənmiş məlumatlara görə, iyunda iş yerlərinin sayı əvvəllər bildirildiyi kimi 206 min yox, 179 min artıb. İyulda ABŞ-da işsizlik iyun ayındakı 4,1 faizdən 4.3 faizə yüksəlib. Bu, 2021-ci ilin oktyabr ayından bu yana ən yüksək səviyyədir. "Trading Economics" ekspertlərinin konsensus proqnozu iyul ayında iş yerlərinin sayının 175 min artacağını və işsizliyin 4,1 faiz səviyyəsində qalmasını nəzərdə tuturdu.

Qeyd edək ki, məşğulluq sahəsi Federal Ehtiyatlar Sistemi (FED) üçün monetar siyasət qərarlarının qəbulunda əsas göstəricilərdən biridir. İşsizliyin artımı tənzimləyicinin sentyabrda faiz dərəcələrini endirəcəyi ehtimalını artırır. Lakin eyni zamanda işsizliyin artımı ABŞ iqtisadiyyatında artım sürətinin yavaşımasının əlaməti hesab olunur.

Beləliklə, ABŞ və Çindən gələn statistik məlumatlar hər iki nəhəng iqtisadiyyatda neftə tələbin azalması ilə bağlı ehtimalları kəskin artırmaqla dünya bazarını neqativə kökləmiş oldu. Bu neqativ fonunda HƏMAS lideri İsmayıl Haniyənin Tehranda öldürülməsi kimi sensasion hadisə də neft bazarında qiymətlərə ciddi bir təsir göstərə bilmədi.

Bundan əlavə, Liviyanın ən böyük neft yatağı olan “Şərara”da ölkədəki kütləvi etiraz və oturaq tətillə bağlı hasilatın yarıya qədər azaldılması da dünya neft bazarına demək olar ki, tam təsirsiz qalmaqdadır.

Neft bazarına dair mənfi gözləntilər fonunda ABŞ Energetika Nazirliyi (EIA) 2024-cü ildə Brent markalı neftin qiyməti ilə bağlı proqnozunu 2,3 faiz azaldaraq, bir barel üçün 86,37 dollardan 84,44 dollara endirib. EIA ilin sonuna kimi Brent neftinin qiymətinin bir barel üçün 85-90 dollar səviyyəsinə qayıdacağını gözləyir: “Qlobal iqtisadiyyatla bağlı bazar narahatlıqları son günlər neft qiymətlərini aşağı salsa da, biz hələ də OPEC+ razılaşması üzrə neft hasilatının azaldılmasının növbəti üç rüb üçün qlobal ehtiyatları azaldacağını və qiymətləri yüksəldəcəyini gözləyirik”.

Bundan əlavə, ABŞ Energetika Nazirliyi 2024-cü il üçün ölkədə neft hasilatı proqnozunu bir qədər - sutkada 20 min barel azaldaraq, 13,23 milyon barel hesablayıb. 2025-ci ildə ölkədə gözlənilən neft hasilatı həcmi də sutkada 80 min barel azaldılaraq 13,69 milyon barelə endirilib.

**Qiymətlə bağlı azalmaya rəğmən ABŞ Energetika Nazirliyi 2024-cü ildə qlobal neft tələbi proqnozunu bir qədər artıraraq sutkada 102,91 milyon bareldən 102,94 milyon barelə qaldırıb, 2025-ci il üçün isə 130 min barel azaldıb. Nazirliyə görə, 2024-cü ildə neftə tələbat 102,94 milyon barel (əvvəllər 102,91 milyon barel), 2025-ci ildə isə 104,55 milyon barel (əvvəllər 104,68 milyon barel) olacaq. Gələn il üçün tələbin azaldılmasını nazirlik Çinlə bağlayır:** “Neft istehlakı ilə bağlı proqnozumuzda azalmaların böyük hissəsi Çindən gəlir və burada ləng iqtisadi artımın dizel istehlakını azaltmağa davam edəcəyini gözləyirik”.

Qeyd edək ki, ümumi prosesə uyğun olaraq dünya bazarlarında “Azeri Light” (CIF) markalı Azərbaycan nefti də son günlərdə ucuzlaşıb. Belə ki, Azərbaycan neftinin 1 barelinin qiyməti 0,97 ABŞ dolları və ya 1,2 faiz azalaraq 79,73 dollara bərabər olub. Azərbaycan neftinin qiymətində əvvəlki həftə ilə müqayisədə azalma olsa da, onun dövlət və icmal büdcələrdə nəzərdə tutulan 75 dollardan yuxarı olması müsbət hal hesab olunmalıdır.

Məlumdur ki, Azərbaycanda neft hasilatının əsasını təşkil edən “Azəri-Çıraq-Günəşli” yatağında istehsalın təbii azalması prosesi gedir. Belə ki, 2019-cu ildə ölkədə gündəlik hasilat 780 min barel, 2020-ci ildə 700 min barel, 2021-ci ildə 720 min barel, 2022-ci ildə 670 min barel, 2023-cü ildə 620 min barel səviyyəsində olub. ABŞ-ın Energetika Nazirliyi yanında Energetika İnformasiyası Administrasiyası (EIA) hesab edir ki, bu il Azərbaycanda gündəlik neft və digər maye karbohidrogenlərin hasilatı 610 min barel təşkil edəcək. Bu, əvvəlki proqnozun dəyişməməsi deməkdir. Lakin bununla yanaşı, EIA-nın ehtimalına görə, gələn il ölkədə ortalama gündəlik neft hasilatı 650 min barel səviyyəsində olacaq (öncəki proqnoz - 660 min barel).

Hasilatın azalması fonunda qiymətlərin yüksək olması ölkənin neft-qaz gəlirlərinin daha az azalmasını təmin edir. Belə ki, bu ilin yanvar-iyul aylarında Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlar blokundan əldə etdiyi gəlirləri 3 milyard 607,7 milyon ABŞ dolları təşkil edib. Bu, illik müqayisədə 13,2 faiz azdır. 2023-cü ilin eyni dövründə sözügedən göstərici 4 milyard 158 milyon ABŞ dolları səviyyəsində olub.

Rəsmi məlumata əsasən bu ilin yanvar-iyul aylarında Neft Fondunun “Şahdəniz” qaz-kondensat yatağından (qaz və kondensatın satışından) əldə etdiyi gəlirləri isə 364,465 milyon ABŞ dolları təşkil edib, bu da illik müqayisədə 3,1 dəfə azalma deməkdir.

Birinci yarımildə fonda "Şahdəniz" yatağı üzrə daxil olan gəlirin 113,878 milyon ABŞ dolları kondensatın satışından əldə edilib ki, bu da 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2,3 dəfə azalma deməkdir. Xatırladaq ki, ötən il ARDNF-nin “Şahdəniz”dən əldə etdiyi gəlirləri 1 milyard 308 milyon ABŞ dolları təşkil edib ki, bu da illik müqayisədə 9,4 faiz azdır. Fondun “Şahdəniz” yatağı üzrə kondensatın satışından əldə olunan gəlirləri 324,396 milyon ABŞ dolları olub, bu da isə 1,3 faiz azalma deməkdir.

Neft Fondu ilə bərabər dövlət büdcəsinə neft-qaz gəlirlərinin daxil olmasında da azalma cüzidir. Maliyyə Nazirliyinin açıqladığı məlumata görə, bu ilin birinci yarısında dövlət büdcəsinin neft-qaz sektoru üzrə daxilolmaları 8 milyard 797,7 milyon manat təşkil edib ki, bu da proqnozla müqayisədə 320,9 milyon manat və ya 3,8 faiz, 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə 2 milyard 148,9 milyon manat və ya 32,3 faiz çoxdur. 2024-cü ilin yanvar-iyun aylarında dövlət büdcəsinin gəlirlərində neft-qaz sektoru üzrə daxilolmaların 27,4 faizini və ya 2 milyard 407,2 milyon manatını vergi daxilolmaları, 72,6 faizini və ya 6 milyard 390,5 milyon manatını isə Azərbaycan Respublikasının Dövlət Neft Fondundan dövlət büdcəsinə transfert təşkil edib. Neft-qaz sektoru üzrə vergi daxilolmalarının 48,5 faizini və ya 1 milyard 167,0 milyon manatını Şahdəniz yatağı üzrə mənfəət vergisi, 34,6 faizini və ya 833,3 milyon manatını Dövlət Neft Şirkətinin ödədiyi müvafiq vergilər, 16,9 faizini və ya 406,9 milyon manatını isə ABƏŞ-in mənfəət vergisi təşkil edir.

Maliyyə Nazirliyinin məlumatına əsasən, bu ilin yekununda büdcəyə vergi və rüsumlar üzrə daxilolmaların məbləği 15 milyard 270,0 milyon manat nəzərdə tutulur ki, bu da cari ilin ilkin təsdiq olunmuş göstəricisinə nisbətən 1405,0 milyon manat və ya 10,1 faiz çoxdur. Qeyd olunan vəsaitin 4 milyard 580,0 milyon manatı və ya 30,0 faizi neft-qaz sektorunun, 10 milyard 690,0 milyon manatı və ya 70,0 faizi isə qeyri-neft/qaz sektorunun payına düşəcək. Neft-qaz sektoru üzrə vergi daxilolmalarının 43,7 faizini və ya 2 milyard manatını Azərbaycan Respublikası Dövlət Neft Şirkəti üzrə vergilər, 14,2 faizini və ya 650,0 milyon manatını "Azəri-Çıraq-Günəşli" layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi, 42,1 faizini və ya 1 milyard 930,0 milyon manatını isə "Şahdəniz" layihəsi üzrə hasilatın pay bölgüsü sazişləri çərçivəsində fəaliyyət göstərən podratçı təşkilatların mənfəət vergisi təşkil edəcək.

❑ **Dünya SAKİT, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 139 (8512) 8 avqust 2024

# Bakı tıxanıb: yol islahatları niyə uğursuzdur? - ekspertlər səbəbləri açıqladı



**İllərdir ki, Bakıda və Abşeron rayonunda yol hərəkətinin təşkilindəki çatışmazlıqların aradan qaldırılması üçün müxtəlif tədbirlər görülür, layihələr həyata keçirilir. Son bir ildə müvafiq qurumlar paytaxtda və Bakı-Sumqayıt yolunda tıxacları azaltmaq üçün müəyyən addımlar atır. Məsələn, bu məqsədlə avtobus zolaqları çəkildi, taksi fəaliyyətində yeniliklər edildi. Hətta daşınmanın səviyyəsinin yüksəldilməsi adı altında ictimai nəqliyyatda qiymətlər artırıldı.**

Ancaq görünən odur ki, tıxac problemini heç bir tədbir kökündən həll edə bilmir. Sərnişin daşımada isə vəziyyət daha da pisləşib. Bəs bu qədər həyata keçirilən tədbirlər və layihələr niyə öz bəhrəsini vermir? Bu layihələr naşı hazırlanır, yoxsa başqa amillər də var?

Suallarımıza aydınlıq gətirmək üçün ekspertlərə üz tutduq. **Nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov** deyir ki, Bakıda yaşanan tıxac problemini avtomobilin çoxluğu ilə əlaqələndirmək doğru deyil. Onun sözlərinə görə, tıxacların çoxluğu avtomobillərin çoxluğu yox, yolların yoxluğu ilə əlaqəlidir:

"Tıxacların yaranma səbəblərindən biri də vaxtilə yol infrastrukturunun bərbad vəziyyətdə qurulmasıdır. Bunu tək mən yox, uzun illər nəqliyyat sektorunda çalışmış insanlar da deyiblər. Bakıda yollar çəkilərkən vətəndaşların rahatlığı yox, başqa məqsədlər düşünülüb.

Bəzən deyirlər ki, tıxacları avtomobil çoxluğu yaradır. Bu da doğru yanaşma deyil. Azərbaycanda 10 milyon əhaliyə cəmi 1 milyon 300 min avtomobil düşür.

Bölgələrdə istismar olunan maşınların yarısı Bakı qeydiyyatı olan avtomobillərdir. Hazırda paytaxtımızda 700 min avtomobil qeydiyyatdadır.

## "Reversiv işarələrdən bütün dünyada istifadə edilir, amma bizdə mütəxəssis olmadığına görə istifadə edən yoxdur"





Dövlət Yol Polisinin təşəbbüsü ilə Bakıda qəzaların sayının azaldılması ilə bağlı tədbirlər görülür. Müəyyən yollarda sürət həddi azaldılıb. Düşünürəm ki, Bakıda tıxacların qarşısını almaq hələ mümkün olmayacaq. Çünki Bakı iri paytaxt şəhəridir. Azərbaycan iqtisadiyyatının yarısından çoxu demək olar ki, burada cəmləşib. Bakının zəngin mədəni həyatı var. Hər gün mərkəzdə müxtəlif tədbirlər keçirilir. Sıxlıq da olur, yollar da bağlanır. Bu da obyektiv bir məsələdir.

Məsələn, iqtisadiyyatı bizdən qat-qat zəif olan ölkələrin tələbə şəhərcikləri, elm və təhsil mərkəzləri var. Ölkənin səfalı bir guşəsində 50-100 min tələbə və müəllimin cəmləşdiyi kiçik şəhərciklər salınır və bütün universitetlər orada cəmlənir.

Azərbaycanda da bunu etmək mümkündür. Nəyə görə bütün universitetlər Bakı şəhərində cəmlənib? Niyə Qəbələdə, Lənkəranda və Gəncədə təhsil kompleksləriniz olmasın? Bunlar da özü-özlüyündə şəhərdə sıxlığın aradan qaldırılmasına kömək ola bilər.

Obyektiv və subyektiv səbəblər var. Tıxacları qismən aradan qaldırmaq olar. Bunun üçün mərhələli iş görmək lazımdır. Konkret bir plan olmalıdır. Cəmiyyətə həmin plan açıqlanmalıdır. Onlar da bilməlidir ki, necə davransınlar ki, tıxacların öhdəsindən gələ bilsinlər".

**Digər nəqliyyat üzrə ekspert Eldar Bəşirov isə bildirir ki, Azərbaycanda özəl sektorla dövlət strukturu arasında uyğunsuzluq var. Onların maraqları uyğun gəlmir. Buna görə də həmişə belə problemlər olacaq:** "Bakıda sıxlıq daha çoxdur. Bütün universitetlər, idarələr, özəl sektor Bakıda yerləşir. Sumqayıt isə boşdur. Özəl sektorun əksəriyyəti Sumqayıta köçürülməlidir. Və yaxud da digər şəhərlərimiz ola bilər.

Qanunda da göstərilir ki, reversiv yollardan istifadə etmək lazımdır. Əgər bir ərazidə tıxac böyükdürsə və digər ərazidə boşluqdursa, orada yaşıl işıq yansın, əks istiqamətdə maşınlar buraxılsın. Reversiv işarələrdən bütün dünyada istifadə edilir. Amma bizdə mütəxəssis olmadığına görə istifadə edən yoxdur. O sahəyə maraq göstərilmir.

Səhərlər Sumqayıtdan Bakıya yüzlərlə maşın gəlir. Əks istiqamətdə isə hərəkət yoxdur. Belə halda reversiv işıqfordan istifadə etmək lazımdır. Bir neçə zolaq yaradılmalı və Bakıya gedən istiqamətdə maşınlar buraxılmalıdır. Bu cür edilsə, tıxaclar aradan qaldırılacaq. Amma heç kimin marağında yoxdur. Texniki şöbə işləmir.

Dövlət yol polisi əməkdaşları bu tıxacları idarə etməlidirlər".

❑ **Şahanə RƏHİMLİ, Musavat.com**

# Körpəsi olan analara xəbərdarlıq

## Həkim: "Körpə gündə ən azı səkkiz dəfə döşlə qidalanmalı və hər ay orta hesabla 600-800 qram çəki artırmalıdır"



**"Süddə olan qida maddələri ananın qidalanmasından, eləcə də onun orqanizminin qida ehtiyatlarından əldə edilir".**

Musavat.com xəbər verir ki, bu fikirləri Səhiyyə Nazirliyinin rəsmi İnstagram hesabında **K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun həkim-pediatrı Aygün Məmmədova** açıqlayıb.

Onun sözlərinə görə, əgər əvvəllər süd verən qadının rasionu bir çox qida maddələrindən məhdudlaşdırılıb və xüsusi pəhriz təklif edilirdisə, son zamanlar demək olar ki, bu məhdudiyyət aradan qaldırılıb: "Ümumiyyətlə, ana südünün keyfiyyəti ananın pəhrizindən asılı deyil. Ana südü kifayət qədər sabit tərkibə malikdir və yalnız ananın qida rasionundan seçici şəkildə təsirlənə bilir. Ananın qida rasionunda kifayət qədər olmasa belə, ana südünün karbohidrat, zülal, yağ, kalsium və dəmir tərkibi çox dəyişmir. Yalnız suda həll olunan vitaminlərin (vitamin C və B qrup vitaminləri) tərkibi birbaşa ananın qidalanmasından asılıdır. Qida ilə B1, A və D vitaminlərinə olan ehtiyac ödənmədikdə isə ana südündə bu maddələrin miqdarı daha az olur. Odur ki, vegan analar ana südü ilə qidalandıran zaman bədənlərinin kifayət qədər miqdarda D və B qrup vitaminləri, dəmir, kalsium və sink almasını təmin etməlidirlər".

**Pediatr qeyd edib ki, laktasiya dövründə arıqlama məqsədli pəhriz edilməməlidir:** "Süd verən analarda qida ilə alınan enerjinin 80%-i süd istehsalı üçün istifadə edilir. Orta hesabla 800 ml qədər süd ifraz etdiyi diqqətə alınarsa, süd verən analar gündəlik 1800 kaloridən az enerji qəbul etməməlidirlər. Gündəlik alınan maye miqdarının təxminən 3 litr olmasına da diqqət göstərilməlidir. Laktasiya dövründə ananın yod və xolinə ehtiyacı artdığından, ilk il ərzində gündəlik 290 mikroqram (mkq) yod və 550 milliqram (mq) xolin istehlak etməyi tövsiyə edilir. Buna görə də ana südü ilə qidalandıran analara balanslı şəkildə qidalanmaq məsləhət görülür. Körpə gündə ən azı səkkiz dəfə döşlə qidalanmalı və hər ay orta hesabla 600-800 qram çəki artırmalıdır. Daha tez-tez qidalanma südün miqdarını və yağ tərkibini artırır".

**A.Məmmədova bildirib ki, əmizdirən analar istehlak etdikləri dəniz məhsullarının miqdarına və növlərinə diqqət yetirməlidirlər:** "Əksər balıqlarda ana südü ilə körpəyə keçə bilən civə olduğundan, civə səviyyəsi az olan balıqlar seçilməlidir. Həmçinin, çox yüksək kofein qəbul edən anaların körpələrində əsəbilik, yuxu rejiminin normal olmaması nəzərə alınaraq daha az kofein istehlak etməli və spirtli içkilərdən istifadə məhdudlaşdırılmalıdır".

YENİ MÜSAVAT
N 139 (8512) 8 avqust 2024

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Uşaq və gənclərin fiziki-mənəvi inkişafı**

# Gənclər niyə dəbə uyğun peşə seçir? - tövsiyə

## Valideyn müdaxiləsi, trendlərə aludəçilik - ixtisas seçərkən bunlardan qaçın!

**İlin bu ərəfələrində Azərbaycan cəmiyyətində ən geniş müzakirə olunan məsələ heç şübhəsiz ki, abituriyentlərin ixtisas seçimidir. Kim gələcəkdə hansı sənətin yiyəsi olmaq istəyir? Bu seçimini məntiq və ya xəyallarına əsasən edir? Valideyn təzyiqi, arzusu və ya yönləndirməsi burada nə qədər rol oynayır?**



Müşahidələr göstərir ki, gənclər ali məktəblərə hazırlaşanda ixtisas seçimi ya trendə uyğun, ya da valideynlərin arzusu ilə olur. Nəticə etibarilə ali məktəbdə təhsil alan gəncin ixtisasına sevgisi yoxdursa, yəni özü seçim etməyibsə, gələcəkdə peşəkar ola bilməz. Çünki öz karyerasını qurmaq istəyən gənclər yiyələndikləri ixtisasa uyğun çalışmayacaqlar, bacardıqları işlə məşğul olacaqlar. Məsələn, hansısa bir peşə sahibi digər sənət üzrə peşəkarlaşır. Ona görə də gənclərə mütləq seçim tanımaq lazımdır. Peşəsini özü seçən gənc gələcəkdə işinə daha məsuliyyətli yanaşır.

Gənclər istədikləri peşəni tapana qədər seçimlərini tez-tez dəyişə bilərlər. Gənclər üçün peşə seçmək yox, istədikləri peşəyə yiyələnmələri önəmlidir. Onlara istiqamət vermək, yollar göstərmək, nümunələr təqdim etmək lazımdır. Gənclər uğur hekayələrini özlərinin yazacaqlarını bilməlidirlər. Onlara trendləri təbliğ etmək lazım deyil. Çünki trendlər müvəqqətidir. Hansı peşəyə sahib olacağımızdan asılı olmayaraq, insanlara xidmət etməyi bacarmalıyıq.

Psixoloji araşdırmalar göstərir ki, peşə seçimini düzgün etməyib sevmədiyi işdə çalışan insanın faydalılıq əmsalı heç vaxt yaxşı ola bilməz. Gənclərin əksəriyyətinin yanlış ixtisas seçdiyi və nəticədə işsiz qaldıqları məlum məsələdir. Hər bir insanın öz sevdiyi, potensialı olan işdə çalışması daha yaxşıdır. Valideynlər peşə seçimi zamanı mütəxəssislərə müraciət etməlidirlər. Valideynlər çox vaxt övladlarının potensiallarını, bacarıqlarını, komplekslərini nəzərə almadan öz arzu və istəklərinə yönəldirlər. Nəticədə gənc öz ambisiyalarından düzgün istifadə edə bilmir. Psixoloqlar eyni zamanda bildirirlər ki, ixtisas və peşə seçməmişdən əvvəl gəncin yeniyetmə yaşlarında olan travmaları, kompleksləri öyrənilməlidir. Bəzən gənclər potensialı olmasına baxmayaraq, öz istəyi ilə yiyələndiyi peşədə özünü doğrulda bilmir. Bunun səbəbi isə sosial komplekslərinin olmasıdır. Psixoloqlar ixtisas seçimi zamanı gəncin xarakterini, qabiliyyətini, şəxsiyyətin özünün daxili resurslarını, temperamentini, sosial komplekslərini nəzərə alaraq faydalı iş əmsalını ortaya çıxarmaq üçün psixoloji hesabat çıxarırlar. Bunun üçün də psixoloqlarda xüsusi testlər olur. Həmin bu testlər vasitəsilə gəncin şəxsi keyfiyyətləri ortaya çıxarılır. Əgər uşağın daxili problemi varsa, silsilə metodikaların köməyi ilə şəffaf qərar qəbul edilir və valideynləri övladlarının əslində hansı ixtisasa uyğun olduğu barəsində məlumatlandırılır. Amma yenə də qarşılıqlı anlaşma yolu ilə gəncin öz seçimi olmalıdır.

Araşdırmalar göstərir ki, Azərbaycanın ali təhsil ocaqlarında bir çox ixtisaslar üzrə kadr hazırlanır. Ancaq həmin ixtisaslara əmək bazarında tələbat yoxdu. Belə olan halda isə bəzi abituriyentlərin ixtisas seçməsi, sadəcə, ali təhsil almaq zərurətindən irəli gəlir. İndi ali təhsil almaq dəbdədir. Buna görə əksəriyyət ali məktəbə can atır, nəticədə də işsiz qalırlar.

İnformasiya-kommunikasiya və iqtisadiyyat ixtisaslarına əmək bazarında tələbat hiss olunur. Təhsil ekspertləri isə bildirir ki, son illər gənclər daha çox dəbə uyğun ixtisas seçir. Halbuki tələbə ixtisas secərkən öz taleyini də müəyyənləşdirir. Ümumən isə dəbə görə ixtisas secmək ənənəsi elə sovet dövründən mövcud olub.

Ümumiyyətlə, ixtisasla bağlı düzgün seçim necə edilməlidir? İxtisas seçərkən ilk ikisi topladığı baldan bir az yuxarı bal tələb edən ixtisaslar yazılmalıdır. Bundan sonra isə ideal seçim sırası edilməlidir. Burada da əsas olaraq abituriyentin istəyi ön planda olmalıdır. Ümumiyyətlə, abituriyent oxumaq istəmədiyi ixtisasları seçməməlidir. Abituriyentin ixtisas seçərkən diqqət etməli olduğu əsas məsələlərdən biri də ixtisaslar üzrə plan yerlərini, müsabiqədə iştirak edən abituriyentlərin topladıqları balların paylanması üzrə saylarını, öz fərdi imtahan göstəricilərinin bu sıralamadakı yerini müəyyən edərək ona əsasən kodlaşdırma aparmasıdır. İxtisas seçimində ən çox istifadə edilən forma ötən illərin tələbə qəbulu müsabiqəsində ayrı-ayrı ixtisaslar üzrə formalaşmış keçid ballarını nəzərə alaraq seçim etməkdir.

Ümumən bütün ixtisaslar lazımlı və faydalıdır. Lakin bütün bu ixtisaslardan biri sizə daha yaxındır. Nəyə qarşı istedadınızın olduğunu aşkara çıxarmaq lazımdır. Üç xüsusiyyət - üç tapmacadır. Sizi xarakterizə edən üç əsas keyfiyyətinizi müəyyən edin. Çox vaxt bu təhlil metodu sizi axtardığınız cavaba doğru aparacaq. Xarakterinizin bir xüsusiyyətini deyil, üçünü birlikdə təhlil edin. Məntiqinizin səsi bu mümkün deyil deyə səslənə bilmədiyi zamanlarda, uşaq olarkən nəyi arzu edirdiniz? Güclü olmağı və hər kəsə qalib gəlməyi arzu edirdiniz? Ola bilsin, siz gələcəyin idmançısısınız. İnsan peşəsinə qarşı sevgi, həvəslə işləmədikdə çətin ki, işdə böyük uğurlara nail olsun. O adi, sıradan bir işçi olaraq qalacaq. Lakin insan arzusunda olduğu ixtisası seçdikdə nəinki yüksək nəticələrə nail olacaq, həmçinin işdə də hər zaman sayılan və seçilənlərdən olacaq. Arzulayın və arzunuza doğru gedin.

**Doğru peşəni necə seçməli?**

Elmi araşdırmalar da sübut edib ki, ümumiyyətlə, peşə seçimi zamanı bir çox amillər əsas götürülməlidir. Birincisi, peşə seçiminə ömürlük seçim kimi baxmaq lazımdır. Əmək bazarındakı vəziyyəti təhlil etmək, hər il yeni-yeni peşələrin əmələ gəldiyinə diqqət yetirmək də mühüm məqamlardandır.

Peşənin nüfuzuna görə seçimi etmək də ciddi bir variantdır.

Peşələrə münasibətdə cəmiyyət üçün bir sıra əhəmiyyətli peşə və məşğuliyyət növlərinin yaraşmaz olması haqqında səhv fikirlər özünü büruzə verir (məsələn, zibil təmizləyən).

İqtisadçı və ya psixoloq cəmiyyət üçün faydalılığına görə kimyaçı və ya çilingərdən qətiyyən artıq deyil. Yalnız öz maraq və bacarıqlarınız hesaba alındıqdan sonra peşənin nüfuzu nəzərə alınmalıdır. Əks halda, "dəbdə olan", amma məmnuniyyət hissi gətirməyən ixtisas sahibi olacaqsınız. Ya da nə olursa-olsun, əsas vəzifə öhdəliklərinin icrası üçün yararsız olacaqsınız...

**Özünüzə uyğun peşə seçmək üçün 5 yol**

**1.** Özünüzü tanıyın: maraq və bacarıqlarınızı müəyyənləşdirin;

**2.** Karyera imkanlarını araşdırın;

**3.** Təhsil və təlimat seçimləri;

**4.** Staj və təcrübə qazanın;

**5.** Peşəkarlardan məsləhət alın.

## "Məktəbli formalarının əldə edilməsi üçün seçim sərbəst aparılır" - rəsmi



"Valideynlərin məqsədli şəkildə hansısa satış məntəqəsinə yönləndirilməsi yolverilməzdir".

APA xəbər verir ki, bunu Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli deyib.

"Xüsusi olaraq qeyd edirik ki, məktəbli formalarının əldə edilməsi üçün seçim sərbəst şəkildə həyata keçirilir. Valideynlərin məqsədli şəkildə hansısa satış məntəqəsinə yönləndirilməsi yolverilməzdir. Bununla bağlı agentliyin yerli bölmələrinə və tabe müəssisələrinə müvafiq tapşırıqlar verilib. Valideynlər məktəbli formaları ilə bağlı hər hansı sual və ya problem olduğu halda agentliyin və yerli bölmələrinin "Çağrı Mərkəzi" ilə əlaqə yarada bilərlər".

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 17 mart 2022-ci il tarixli "Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri"nin təsdiq edilməsi haqqında qərarına əsasən ümumi təhsil müəssisələrində 4 növ geyim formasından biri tətbiq edilir.

Bunu da Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi Ümumi təhsilin təşkili şöbəsinin müdir müavini Nurlan İsmayılbəyli deyib.

O bildirib ki, 2022-ci ildə hər bir ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası bununla bağlı müvafiq qərar qəbul edib.

Valideynlər, xüsusilə övladları birinci sinfə gedənlər agentliyin və yerli bölmələrinin çağrı mərkəzi, eləcə də uşaqlarının təhsil alacağı məktəbdən bu barədə ətraflı məlumat əldə edə bilərlər.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Sevinc TELMANQIZI

YENİ MÜSAVAT
N 139 (8512) 8 avqust 2024



# Sanksiyalar Rusiyanı sarsıda bilmir? - Neft-qaz gəlirlərini artıran səbəb

## Öz ixracını Hindistan və Çinə istiqamətləndirən Rusiya Türkiyə, Afrika ölkələri kimi digər alıcılar hesabına dünya bazarına çıxardığı neftin həcmini sürətlə artırır

**Qərbin sərt sanksiyalarına rəğmən 2024-cü ilin yanvar-iyul aylarında Rusiyanın neft və qaz gəlirlərinin həcmi illik ifadədə 61,6 faiz artaraq bir il əvvəlki 4,193 trilyon rubla qarşı 6,777 trilyon rubla çatıb.**

Rusiya Maliyyə Nazirliyinin açıqladığı məlumata görə, iyulda gəlirlər 16,4 faiz artaraq 944 milyard rubla çatıb. Neft və qaz kondensatının hasilatı və ixracı yeddi ay ərzində büdcəyə 7,944 trilyon rubl qazandırıb. Bir il əvvəl bu, 4,393 trilyon rubl təşkil edirdi. Mineral hasilat vergisi və qaza ixrac rüsumu 6,7 faiz artıb: 2024-cü ilin yanvar-iyul aylarında bir il əvvəlki 955,7 milyard rublla müqayisədə 1,022 trilyon rubl təşkil edib.

2024-cü ilin ilk yeddi ayında neftçilər də yanacaq üçün dempfer mexanizmi üzrə ödənişlər şəklində xəzinədən 1,128 trilyon rubl əldə ediblər ki, bu da 2023-cü ilin yanvar-iyul ayları ilə müqayisədə 72,7 faiz çoxdur.

Bu göstəricilər Qərbin Rusiya neftinə qarşı tətbiq etdiyi məhdudiyyətlərin, həmçinin qiymət tavanının təsirinin minimum səviyyədə olmasından xəbər verir. Rusiyanın əsas ixrac markası olan Urals markalı neftinin qiyməti iyul ayında 70 dollara bərabər olub. Bu, 60 dollarlıq tavandan 16 faizdən çox yuxarı bir qiymətdir. Bu ilin 6 ayında Rusiya şirkətləri təkcə Çinin neft emalı zavodlarına 55,1 milyon ton neft verib ki, bu da ötən illə müqayisədə 5 faiz çoxdur. Neftin orta qiyməti 9 faiz artaraq 80,3 dollar/barelə çatıb.

"Qazprom"un "Sibirin gücü" boru kəməri ilə nəql etdiyi qazın satışından əldə olunan gəlir isə 17 faiz artaraq 4 milyard dollar təşkil edib. 2025-ci ildə kəmərin ötürücülüyünün 38 milyard kubmetrə, 2024-cü ilin sonuna isə qaz tədarükünün həcminin 30 milyard kubmetrə çatacağı gözlənilir.

Rusiya neftinin 70 faizdən çoxunu 2022-2023-cü illərdə formalaşdırdığı kölgə donanması ilə daşıyır. "Bloomberg"in məlumatına görə, Rusiya kölgə donanmasında 600-dən çox tanker toplayıb. Onun dəyəri 2 milyard dollardan çoxdur. Gəmi sahibləri agentliyə bildiriblər ki, bu, dünya üzrə tankerlərin sayının təxminən 10 faizini təşkil edir. Donanmaya məxsus tankerlər əksər hallarda GPS sistemini söndürür, yaxud olduqları yerdən tamam fərqli yerdə olduqlarını göstərən aldadıcı sistemdən istifadə edirlər. Onları sığortalayan şirkətlərin əksəriyyəti heç yerdə tanınmayan şirkətlərdir. Bundan əlavə, bir çox hallarda onlardan neft dənizdəcə sanksiyalara uyğun fəaliyyət göstərən tankerlərə boşaldılaraq daşınır.

Bu cür daşınmaların qarşısını almağa çalışan ABŞ 2024-cü ilin ötən dövründə 30-dan yuxarı tankeri qara siyahıya salıb. Lakin əksər analitik mərkəzlərdə hesab edirlər ki, Vaşinqton Rusiyadan neft ixracının azalmasında maraqlı deyil, çünki bu, dünyada neft qiymətlərini artırmaqla daxildə əhalinin həssas olduğu benzinin qiymətini bahalaşdırır.

Rusiya bu yanaşmadan məharətlə istifadə edir. Öz ixracını Hindistan və Çinə istiqamətləndirən Rusiya Türkiyə, Afrika ölkələri kimi digər alıcılar hesabına dünya bazarına çıxardığı neft həcmlərini sürətlə artırır. Hətta bu zaman OPEK+ razılaşması çərçivəsində üzərinə götürdüyü öhdəlikləri pozmaqdan da çəkinmir. Bu ilin fevralından iyunun sonunadək Rusiya razılaşma çərçivəsində hasil etməli olduğundan gündəlik 170 min barel çox neft hasil və ixrac edib. Bu, OPEK+ daxilində ciddi narazılıqlara səbəb olduğuna görə Moskva OPEK+ ölkələri nazirlərinin iyunun əvvəlində keçirilən iclasında ilin ikinci yarısında artıq həcmləri ixtisar edəcəyini vəd edib. Lakin iyun ayında ixracı kəskin şəkildə artıran Rusiyanın bu addımı OPEC+ nazirlərinin monitorinq komitəsinin avqustun əvvəlində keçirilən iclasında yenidən müzakirəyə çıxarılıb. Bu müzakirələrdən əvvəlcədən xəbərdar olan Rusiya OPEC+ sazişi çərçivəsində neft hasilatının yenilənmiş təzminat cədvəlini OPEK katibliyinə göndərib. Ölkə 2025-ci ilin sentyabr ayına qədər artıq hasilatı iki mərhələdə kompensasiya etməyi öhdəsinə götürüb: 2024-cü ilin oktyabr-noyabr aylarında və martdan 2025-ci ilin sentyabrın sonuna qədər. **Rusiya Energetika Nazirliyi bəyan edib ki, Rusiya iyul ayında artıq istehsal məsələsini həll edəcək və tələblərə tam əməl edəcək:** "Rusiya 2024-cü ilin aprelindən 2024-cü ilin oktyabr-noyabr ayları arasında, eləcə də martdan 2025-ci ilin sentyabr ayının sonuna qədər bölüşdürülmüş kompensasiya dövründə artıq hasilatı kompensasiya edəcək".

Bu vədə baxmayaraq, OPEK+ monitorinq komitəsi yenidən məsələyə qayıdıb. Bəzi mənbələr müzakirələrin gərgin keçdiyini bildirirlər. Rusiya razılaşma çərçivəsindəki müttəfiqlərini razı salmaq üçün iyuldan ixracı azaltmağa başlayıb. "Bloomberg"in bu barədə tanker izləmə məlumatlarına istinadən yaydığı məlumata görə, ötən ay qlobal neft tədarükü gündə təxminən 586 min barel azalıb. Xüsusilə Rusiyanın qərb limanlarından ixrac gündəlik 1,8 milyon barellə 19 ayın minimum səviyyəsinə düşüb. Bu, iyunun 2,2 milyon barel göstəricisindən xeyli aşağıdır.

Agentlik vurğulayır ki, neftin əsas istehlakçısı olan Çinə ümumi tədarük sutkada 1,4 milyon bareldən çox azalıb ki, bu da bir ildə ən ciddi azalma olub. İyulda Çinə əsas ixracatçılar İraq, Səudiyyə Ərəbistanı və Rusiya olub. Eyni zamanda Kpler analitik şirkətinin məlumatına görə, Rusiyanın Kozmino limanından ESPO neft daşımalarının orta gündəlik ixrac həcmi 945 min barelə çatıb. Bu, iyun ayı ilə müqayisədə 10 faiz, 2022-ci ilin iyul ayı ilə müqayisədə isə 7,6 faiz çoxdur. Bu ixracın əsas hissəsi (83 faiz) Çinə gedib.

Məlumdur ki, Qərb ölkələri Rusiyanın ixrac etdiyi maye qaza - LNG-yə qarşı sanksiyalar tətbiq etməyə başlayıb. Belə ki, ABŞ və Avropa İttifaqı Rusiyanın LNG sənayesinə qarşı bir neçə növ sanksiya tətbiq edib. Avropa İttifaqı öz limanlarında LNG-nin daşınmasına qadağa qoyub.Bu qadağa 2025-ci ilin martında qüvvəyə minəcək. Avropa limanları Rusiya tankerləri tərəfindən LNG-ni yenidən yükləmək və uzaq ölkələrə göndərmək üçün istifadə olunur, çünki onu yan-yana yükləmək neftdən qat-qat çətindir.

ABŞ və Böyük Britaniya Rusiyanın əsas maye qaz istehsalçısı olan "Novatek" şirkətinin "Arctic LNG 2" layihəsini qara siyahıya salıb. "Novatek" ondan qaz nəqlinə 2023-cü ilin sonu - 2024-cü ilin əvvəlində başlamaq niyyətində idi, lakin sanksiyalar və xarici səhmdarların layihədə iştirakını dondurması səbəbindən bunu edə bilməyib. Layihə bu ilin ilk aylarında hasilatı kəskin azaldıb, çünki onun pulsuz qaz anbarı tutumu demək olar ki, qalmayıb. Tankerlərin olmaması və yeni alıcıların tapılması zərurətinə görə "Novatek" LNG daşımalarının başlanmasını qeyri-müəyyən müddətə təxirə salmalı oldu.

"Bloomberg"in yazdığına görə, Rusiya neft daşımaları üçün qurduğu sxemi maye qaz üçün də tətbiq etmək - yəni onun daşınması üçün də kölgə donanma yaratmağa başlayıb. Düzdür, dünyada LNG tankerləri neft tankerlərindən 10 dəfə azdır, onlar daha ixtisaslaşmış gəmilərdir, onları izləmək daha asandır və xüsusi peşəkar bacarıqlara malik heyət tələb olunur. Lakin bu amillər Rusiyanı dayandırmır. "Bloomberg" qlobal gəmiçilik məlumat bazası "Equasis"ə istinadən xəbər verir ki, son üç ayda ən azı səkkiz LNG tankeri Dubayda qeydiyyatdan keçmiş az tanınan şirkətlərin mülkiyyətinə keçib. Onlardan ən azı üçünün Beynəlxalq Dəniz Təşkilatının məlumat bazasında "sığortaçı" kimi "naməlum" adı var.

Səkkiz gəmidən dördü - "North Air", "North Mountain", "North Sky" və "North Way" - bu yay Şimal Dəniz Marşrutunun (NSR) sularında üzmək üçün icazə almış buz sinifli tankerlərdir. NSR "Novatek"in Yamal LNG layihəsindən qaz nəql edir. Bu tankerlər indi Dubayda yerləşən "White Fox Ship Management" şirkətinə məxsusdur və onun öz ofisi yoxdur. Binanın əməkdaşı "Bloomberg"ə bildirib ki, onun qeydiyyatda olduğu ünvan bir çox şirkət tərəfindən istifadə olunur.

Digər gəmilərin, məsələn, 22 yaşlı Asya Enerji kimi köhnə tankerlər olduğu ortaya çıxıb. May ayında BƏƏ-nin azad ticarət zonasındakı "Meydan" hotelində fəaliyyət göstərən sənaye iştirakçılarına məlum olmayan, Dubayda yerləşən "Nur Global Shipping" şirkəti tərəfindən alındıqdan sonra yeni ad alıb.

2022-ci ildə yaradılan "Nur Global" aprel ayından bu yana daha üç LNG tankerini - "Pioneer", "New Energy" və "Mulan"ı idarə edib. Onlar "Nur Global" ilə eyni ünvanda qeydiyyatdan keçmiş şirkətlərə aiddir. Artıq "Pioneer" tankerinin "Arktik-2"nin yanında olduğunu göstərən peyk görüntüləri yayılmağa başlayıb. Həmin görüntülər çəkilində tankerin guya İspaniya sahillərində olduğuna dair yalançı siqnallar var idi. "Arktik-2" sanksiya altında olmayan "Yamal" yatağına yaxın olduğuna görə güman edilir ki, "Novatek" oradan maye qazı tankerlərlə "Yamal"a daşıyıb, onun məhsulu kimi dünya bazarına çıxarmaq niyyətindədir. Çünki "Pioneer" köhnə tankerdir, Baltikyanı ölkələr ekoloji təhdid üzündən elə tankerlərin öz ərazi suları ilə hərəkətinə qadağa qoyublar. Bundan əlavə, neftdən fərqli olaraq, LNG ixracatçılarının sayı çox məhduddur, daşınan məhsulun kimə məxsus olduğunu müəyyənləşdirmək çətinlik yaratmır.

Rusiyanın maye qaz üçün kölgə donanma yaratmağa başlaması Qərbdə onun maye qazına tam embarqo tətbiqi məsələsini aktuallaşdırmağa başlayıb. Lakin analitik mərkəzlər hesab edirlər ki, hələlik bu addıma gedilməyəcək...

**❑ Dünya SAKİT, "Yeni Müsavat"**

# Ağır qəzalı, suda batmış maşınların idxalı yasaqlansınmı - rəy

## Ekspert: "Kimsə bu cür avtomobilləri ölkəyə gətirib pul qazanır, amma kimlərsə də o maşınlarda qəzaya düşür, həyatını itirir…"

**Son illər ölkədə dəb düşmüş biznes növlərindən biri də xarici ölkələrdən, xüsusilə ABŞ-dan, Kanadadan, Yaponiyadan və s. qəzalı, suda batmış, lakin istehsal ili təzə olan maşınları gətirib, təmir edib satmaqdır. Kiçik dəqiqləşdirmələrdən aydın olur ki, belə maşınların əksəri çox ağır qəzalar keçirib, təhlükəsizlik sistemi sıradan çıxıb. Onları çox ucuz qiymətə auksiondan udurlar və gətirib 5-6 min manat bahasına, "sadəcə buferi əzilmiş" maşın adı ilə vətəndaşlara satırlar. Yüngül vuruğu, məsələn, "bufer", qapı əziyi və s. bu kimi xırda əziklərin bir problemi olmur. Ancaq bir çox maşınlar çox ağır qəzalar keçirmiş, bütün airbagları açılmış olur ki, onları nə qədər təmir etsən də, hər an təhlükə yarada bilər.**





Gömrük Komitəsinin həyətindən çəkilən görüntülər bu məsələni yenidən aktuallaşdırıb.

Kadrlarda Bakıya xarici ölkələrdən tam yararsız vəziyyətdə gətirilmiş avtomobillər əks olunub.

Ölkəyə aşmış, yanmış, tamamilə yararsız vəziyyətdə olan maşınların gətirilməsi narazılıq doğurub.

İzləyicilər şərhlərdə "Belə maşınlar Bakıya niyə gətirilir?" , "Bir- iki ay sonra "bezkraska" adı ilə satacaqlar", "Alverçilər Bakının avtomobil bazarını zibilliyə döndəriblər" tipli şərhlər yazıblar.

Avtomobil ustaları ikinci əl avtomobil alarkən yürüş məsafəsinə baxmağın vacib olduğunu vurğulayırlar. Avtomobilin bütün texniki nasazlıqlarını yalnız kompüter yoxlanışından keçirməklə, yəni diaqnostika etdirərək tam dəqiq bilmək olmur. Bunun üçün avtomobilin ümumi texniki xüsusiyyətlərini bilmək və onun işləmə prinsipinə bələd olmaq lazımdır. Avtomobilin mühərrikinin hansı yanacaq növü ilə işləməsi də önəmli amillərdəndir. Dizel mühərrikli avtomobillə benzin mühərrikli avtomobil çox fərqlidir. Dizel motorlar sıxılma-partlama, benzin mühərriklər isə alışma-yanma ilə işləyir. Bu baxımdan benzin mühərrik və dizel mühərrikin problemləri də fərqli olur. Azərbaycanda satılan dizel yanacağının keyfiyyəti aşağı olduğundan belə yanacaqla işləyən mühərriklərin DPF - filtrləri ni tez bir zamanda sıradan çıxarır və avtomobilin hərəkətində müəyyən problemlər yaradır. Məsələn, avtomobilin sürət yığmağı ləng baş verir, əgər turbosu varsa, bu da mühərrikin və turbonun ömrünü qısaldır.

Bundan başqa, ikinci əl avtomobil aldıqda onu servisdə ümumi yoxlanışdan keçirmək olur. Bu zaman avtomobilin təkərlərindən tutmuş şüşəsilənin suyuna qədər hər bir detalı ayrıca yoxlamaq lazımdır. Sürətlər qutusunun yağı, mühərrik yağının keyfiyyəti, həmçinin avtomobilin əyləc sistemi yoxlanılmalıdır. Əgər əyləc mayesi köhnədirsə, sürətlər qutusu da daxil olmaqla, mütləq dəyişilməlidir. Avtomobilin mühərrik yağı nə qədər keyfiyyətli olarsa, yürüş məsafəsi də çox olur. Digər məsələ, benzin mühərriklərdə alışdırma şamlarının mütəmadi olaraq dəyişilməsidir. Bunun avtomobilin "çəkiminə" böyük təsiri var. Məsələn, hər hansı bir şam işləmədikdə avtomobilin dövriyyəsində problemlər yaranır, "çəkim" zəifləyir. Bu detalları da 35-40 min kilometrdən bir dəyişmək məsləhətdir. O cümlədən əyləc sistemindən əyləc yataqlarına mütləq baxılmalıdır. Əgər çox yeyinti varsa, onun da dəyişdirilməsi çox vacibdir.

Qeyd edək ki, Azərbaycana ili köhnə avtomobillərin gətirilməsi qadağan edilsə də, avtomobilin vəziyyəti barədə hər hansı tələb yoxdur.

Bəs ağır qəzalı, airbagları açılmış, suda batmış maşınların ölkəyə gətirilməsi qadağan edilməlidirmi? Çünki onlar istifadə zamanı təhlükə yaradır.

Mövzu ilə bağlı **nəqliyyat eksperti Elməddin Muradlı** "Yeni Müsavat"a danışıb. Ekspert qeyd edib ki, Azərbaycanda qəzalı avtomobillərin idxalı mövzusu açıq qalıb, yəni konkret qadağa yoxdur. Yalnız istehsal ili 10 ildən yuxarı olmayan avtomobillərə dair tələblər var, yəni bu cür avtomobillər ölkəyə gətirilə bilər: "Müşahidə edirik ki, son zamanlar xeyli sayda əzilmiş, qəza keçirmiş maşınları Azərbaycana gətirirlər. Kimlərsə xarici ölkələrdən əzilmiş, qəza keçirmiş maşınları alıb, ölkəyə gətirir, üzərində müəyyən kosmetik dəyişikliklər edib, satmağa çalışırlar.

Bəzən maşın alverçilərinin özləri maşınları yolda vurub əzirlər ki, gömrükdə müəyyən endirim əldə etsinlər, daha sonra onun üzərində kosmetik işlər aparıb, təzə maşın kimi daha baha qiymətə satmağa çalışırlar. Yəni məhdudiyyət olmadığından alverçilər yaranmış fürsətdən istifadə edir.

Dəfələrlə təklif etmişik ki, bu cür qəzalı, suda batmış maşınların ölkəyə gətirilməsi qadağan olunsun. Bir çox ölkələr artıq belə bir qərar qəbul edib, qəzalı avtomobilləri ölkəyə buraxmırlar. Həmin ölkələr də əsasən avtomobil istehsalçılarıdır. Yəni başqa ölkələrə kütləvi şəkildə avtomobillər satır, ona görə də arxayın şəkildə bu məhdudiyyəti tətbiq edirlər.

Amma Azərbaycanda hələ ki bu sistem qurulmayıb, çünki biz avtomobil istehsalçısı deyilik. Adi maşın elementlərini belə istehsal etmirik. Sadəcə, xarici ölkələrdən xammal alıb, avtomobili yığırıq ki, bu da istehsal demək deyil. Ona görə də tam olaraq məhdudiyyət də qoya bilmirik.

Hesab edirəm ki, gömrük postlarında xüsusi cihazlar vasitəsilə həmin avtomobillərin parametrlərinə baxış keçirilməlidir. Çünki bu cür avtomobillər çox təhlükəlidir, təhlükəsizlik elementləri demək olar ki, sıfıra düşüb, qəzada xeyli sayda insan ölümünə səbəb olur. Kimsə bu cür avtomobilləri ölkəyə gətirib pul qazanır, amma kimlərsə də o avtomobilin içərisində qəzaya düşür, həyatını itirir. Dövlət bunu fikirləşib, bu cür avtomobilləri ölkəyə buraxmamalıdır".

**Ekspert qeyd edib ki, bəzən vətəndaşların özləri də avtomobil alarkən səhlənkarlıq edir, məsələyə məsuliyyətsiz yanaşırlar:** "Servisdə kosmetik yoxlamadan keçirir, baxılar ki, yaxşıdır, "yağ yemir", bununla da bütün dərin detalları yoxlamadan avtomobili alırlar. Və yaxud 50 manat verib, Check-up müayinəsindən keçirmək istəmir, 10 manat verib ara məhəllələrdəki ustalara göstərir, usta da deyir ki, yaxşıdır, amma sonra məlum olur ki, heç də yaxşı maşın deyil".

**Elməddin Muradlı həmçinin təəssüflə qeyd edib ki, avtomobil bazarında alqı-satqı prosesi ilə bağlı dövlətin heç bir müdaxiləsi yoxdur:** "Avtomobil bazarı tam nəzarət altında deyil, bazarı hazırda avtomobil "dəllalları", alverçilər idarə edir. Alverçilər istədikləri vaxt qiyməti qaldırıb, endirir, hansı maşını necə satmaq lazımdır məsələsini müəyyənləşdirir. Bəzən müşahidə edirik ki, ölkədə heç bir qiymət artımı yoxdur, yanacağın qiyməti bahalaşmayıb, amma maşın bazarında alverçilər qiyməti artırıb.

Türkiyədə artıq avtomobillərin alqı-satqısı məsələsinə dövlət səviyyəsində müdaxilə, nəzarət var, ona görə də heç kəs kimisə aldada bilmir. Satan alıcını aldada bilmir, öz məsuliyyətini dərk edir ki, hansısa problem olarsa, onu nə gözləyir və sairə.

Hesab edirəm ki, gec-tez ölkəmizdə də bu mexanizm qurulacaq. Amma qeyd etdiyim kimi, hazırda bu məsələyə nəzarət yoxdur".

❑ **Xalidə GƏRAY, "Yeni Müsavat"**



# İrandan Azərbaycana narkotik keçirilməsinin qarşısı alındı

**Narkotik vasitənin ölkə ərazisinə keçirilməsinin qarşısı alınıb.**

Bu barədə APA-ya Dövlət Sərhəd Xidmətindən məlumat verilib.

Bildirilib ki, dövlət sərhədinin etibarlı mühafizəsinin təmin edilməsi, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri çərçivəsində avqust ayının 5-də keçirilmiş əməliyyat-axtarış tədbirləri nəticəsində saat 17:15-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Göytəpə" sərhəd dəstəsinin xidməti ərazisində ümumi çəkisi 25 kiloqram 350 qram narkotik vasitə marixuananın və 1600 ədəd Metadon M-40 həbinin qaçaqmalçılıq yolu ilə İran İslam Respublikasından Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.

Fakt üzrə əməliyyat-istintaq tədbirləri davam etdirilir.

YENİ MÜSAVAT
N 138 (8512) 8 avqust 2024

# “Xaricdə təhsil” fırıldaqçıları - valideynlər tora düşə bilər

## Hüquqşünas: “Bu şirkətlərin heç birinin lisenziyası yoxdur”

**Ali məktəblərə qəbul imtahanlarının nəticələri artıq bəllidir, abituriyentlər son mərhələni - apelyasiya şikayəti mərhələsini də geridə qoyublar. Avqustun 9-dan ixtisas seçimi başlayacaq. Bu il ölkədə 90 minə yaxın abituriyent ali məktəblərə qəbul olmaq üçün müraciət edib, qəbul planı isə 60 min civarındadır. Hər il olduğu kimi, bu il də xaricdə təhsil almaq istəyənlər az deyil. Sosial şəbəkələrdə də “xaricdə təhsil” reklamları tüğyan edir. Onların əksəri isə valideynləri tora sala bilər. Belə ki, kifayət qədər fırıldaqçılıq elementləri sezilən təkliflər var. Aldanmamaq üçün təhsil şirkəti seçərkən hansı məqamlara diqqət etmək lazımdır?**

“Bakı” Hüquq Şirkətinin rəhbəri Natiq Ələsgərov “Yeni Müsavat”a deyib ki, xaricdə təhsil şirkəti ilə müqavilə bağlamazdan əvvəl şirkətlə bağlı araşdırma etmək vacibdir. Şirkətin fəaliyyət göstərdiyi müddət, nailiyyətləri araşdırılmalıdır:

“Bu gün xarici ölkələrə tələbə qəbulu xidməti göstərən şirkətlərin heç birinin Təhsil Nazirliyi ilə bir bağlantısı yoxdur. Hər hansı bir lisenziya almayıblar. Vergi ödəyicisi kimi qeydiyyatdan keçib işə başlayıblar. Onlar özləri də istədikləri xarici universitetin saytından qeydiyyatdan keçib tələb olunan sənədləri göndərməklə bu prosesi həyata keçirə bilərlər. Bu gün əksəriyyəti təhsil yox, diplom düşündürür. Buna görə də xaricdə imtahansız təhsil onları maqnit kimi özünə çəkir. Çox vaxt bu cür diplomlar Azərbaycanda tanınmır və vətəndaşların 4-5 ildə tökdükləri pul havayı getmiş olur”.



**Natiq Ələsgərov deyib ki, vətəndaşlarımız məlumatsızlıq səbəbindən xaricdə təhsil fırıldağının qurbanına çevrilirlər:** “Belə fırıldaqlar olsa da, xaricdə təhsil almaq üçün vətəndaşlarımızın can atması da başadüşüləndir. Azərbaycan təhsil sistemi yetkin mütəxəssis yetişdirmir. Bu problemin həlli üçün ilk növbədə peşəkar və təcrübəli müəllimlər yetişdirmək əsas şərtdir. Bu gün Azərbaycanda müəllimlərin peşəkarlığının və təcrübəsinin az olması, tələbələrin öyrənmə prosesinə mənfi təsir edir. Müəllimlərin müasir tədris metodlarından istifadə etməməsi tələbələrin təhsilində geriləməyə səbəb olur və onların öyrənmə imkanlarını məhdudlaşdırır. Müəllimlərin peşəkarlığının artırılması üçün müəllimlərin təlim və təkmilləşdirilmə proqramlarına qatılması təşviq edilməli, müəllimlərə müasir tədris metodları və texnologiyaları ilə tanış olmaq imkanları yaradılmalıdır. Eyni zamanda müəllimlərin iş yükünün düzgün tənzimlənməsi və onlara layiqli maaş və sosial imtiyazların verilməsi də önəmlidir. Bundan başqa, təhsil müəssisələri ilə iş dünyası arasında daha güclü əlaqələrin qurulması, təcrübə proqramları və işə düzəlmə imkanlarının genişləndirilməsi vacibdir. Eyni zamanda tələbələrə karyera planlaşdırması və iş axtarışı bacarıqlarını inkişaf etdirmək üçün lazımi dəstəyin verilməsi də önəmlidir. Azərbaycanlı tələbələrin təhsil sahəsində üzləşdiyi əsas problem təhsil keyfiyyətidir. Bu problemlərin həlli üçün təhsil sisteminin yenilənməsi, infrastrukturun yaxşılaşdırılması, maliyyə və psixoloji dəstək imkanlarının artırılması vacibdir. Eyni zamanda müəllimlərin peşəkarlığının artırılması, təhsil sisteminin daha effektiv olması və tələbələr üçün karyera və iş təcrübəsi imkanlarının genişləndirilməsi vacibdir. Tələbələrin qarşılaşdığı bu problemlərin həlli, onların daha parlaq gələcəyə sahib olmalarına xidmət edəcək. Azərbaycanın təhsil sistemi beynəlxalq səviyyədə rəqabətə davamlı olmasa, xaricdə təhsil cəlb edənliyini qoruyub saxlayacaq”.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**“Yeni Müsavat”**

# “Acıq, ev yoxdur, tələbələr pis vəziyyətdədir” - kirayə mənzil bazarından reportaj

## “Makler”lər od püskürdü: kirayə ev yoxa çıxsa da, mənzillərin alqı-satqısı iki aydır ki, dayanıb










**Yeni dərs ilinin başlamasına təxminən bir ay vaxt qalıb. Bölgələrdən tələbələrin paytaxta axını kirayə evlərə olan tələbatı xeyli artırıb. Digər şəhər və rayonlardan gələnlər adətən “Neftçilər” metrosunun yaxınlığında yerləşən “kirayə bazarı”na baş çəkib, ciblərinə münasib ev axtarırlar. “Makler”lər şirin dillərini işə salıb, tələbələrə kirayə mənzillər vermək üçün dəridən-qabıqdan çıxırlar. Bəs kirayə mənzil bazarında vəziyyət necədir? Tələbələr ev tapa bilirlərmi? Qiymətlər ciblərinə uyğun gəlirmi? Real məlumatlar əldə etmək üçün bazara baş çəkdik.**

Evlərin kirayə verilməsi və satışı ilə məşğul olanlar mənzil qıtlığından dad edib “od püskürdülər”. Bildirdilər ki, rayonlardan paytaxta axın artıb deyə kirayə evi gündüzlər çıraqla gəzirlər. Həm özləri, həm də tələbələr çıxılmaz vəziyyətdə qalıblar.

Hətta bunu bir az qaba formada ifadə edən “makler”lər də oldu: “Elə bil ki, Bakı zooparkdır. Hamı bura axışır. Rayon əhalisi əvvəllər yay aylarında gedib, sentyabrda gəlirdi. İndi heç kim yerindən tərpənmir. Buna görə də ciddi qıtlıq var”.

**Digər “makler”lə söhbətimizdə öyrəndik ki, “Neftçilər” və “Xalqlar dostluğu” metro stansiyasının yaxınlığında bir otaqlı mənzillərin kirayəsi 350 manatdan başlayır. Tələbələr isə ucuz ev tapmaqda çətinlik çəkirlər:** “Neçə gündür ev tapa bilmirlər. Mənzillər çox bahadır. Rayonlardan axın çoxdur. Sovet vaxtı yataqxanalar olurdu. Tələbələr ucuz qiymətə gedib orada qala bilirdilər. İndi ondan da məhrum olublar. Həyət evlərini kirayəsini heç tapa bilmirik. Olanlar isə Qaraçuxurda, Əhmədlidə, Keşlədə 200 manata və daha yüksək qiymətə verilir.

Nisbətən normal şəraitli iki otaqlı bina evi 400, 500 manata başa gəlir. Yeni tikililərdə isə kirayə evlər 600-700 manat arasındadır. Vəziyyət sosial partlayışa aparıb çıxarır. Dərman baha, ərzaq baha, əlbəttə bu kirayə evlərin qiymətinə də təsir edəcək".

**Ancaq maraqlıdır ki, “makler”lərin sözlərinə görə, kirayə ev yoxa çıxsa da, mənzillərin alqı-satqısı iki aydır ki, dayanıb. Satış tempi sürətlə aşağı düşüb:** “Söküntü çoxdur. Ona görə də kirayə mənzillərə tələbat artıb. Ev yiyələrinin ağlına hansı qiymət gəlirsə, onu da qoyurlar. Çörək qazana bilmirik”.

**Azərbaycan Qiymətləndiricilər Cəmiyyətinin sədri Vüqar Oruc deyir ki, kirayə mənzil bazarında mənzillərin qıtlığı və qiymətlərin artımı mövsümü xarakter daşıyır. Hər il bununla qarşılaşırlar:** “Rayonlardan Bakıya böyük axın olur, tələbələr ev axtarır. Bu da tələbatı artırır. Nəticədə həm mənzil qıtlığı yaranır, həm də bu hal qiymətlərə xüsusi təsir göstərir, artımla nəticələnir.

Qiymətlərin artan templə yüksəldiyini görürük. Bunlar kirayə bazarına da təsirini göstərir. Ofislərin də kirayə qiyməti 10-12 faiz artıb. Bütövlükdə daşınmaz əmlaka olan maraq yüksəlib.

Hazırda Azərbaycanda daşınmaz əmlak az riskli və stabil gəlir gətirə bilən investisiya subyektidir. Bu baxımdan hesab edirəm ki, alqı-satqı qiymətlərində artımı ümumi artım tendensiyası kimi qəbul etməliyik.

Bu proses davam edəcək. Amma sentyabr ayında biz müəyyən stabilləşmə dövrünü müşahidə edəcəyik. Eyni tendensiya Ukrayna və Rusiya arasında müharibə başlayan zaman baş vermişdi. Ölkəmizə çox böyük axın var idi. Bu axın təbii ki, qiymətlərin artımı ilə nəticələnmişdi. COP29 kimi tədbirin astanasındayıq. Bu da qiymətlərə təsir göstərir. İndidən qonaqlar üçün mənzillərin, hotel otaqlarının hazırlanması prosesi gedir. Bunu da artıma təsir kimi qəbul edə bilərik".

❑ **Şahanə RƏHİMLİ,**
**Musaat.com**

YENİ MÜSAVAT

Son səhifə

N 139 (8512) 8 avqust 2024

## Bunları bilirsinizmi?

Avqust

* Yayda saçlara çoxlu toz qonur. Bunun üçün baş şotkasına köhnə kapron corab dolayır, sonra darayırlar.
* Tez-tez quruyan və qabıq verən dodaqlara 1%-li bor turşusu məhlulu çəkir və ya bitki yağı sürtürlər.
* Yanmış yerə yumurta ağında isladılmış əski qoyurlar. Bu, ağrını azaldır və yara daha tez sağalır. Yanmış yerə tünd çay, marqanez məhlulu da qoymaq faydalı olur.
* Yorğunluğu götürmək üçün ayaqları duzlu suyla vanna etməkdə fayda var.
* Çatlamış dərini qəhvə xıltı ilə ovxaladıqda əllərin dərisi yumşaq və elastik olur.
* Yatarkən başınızın altına hündür yastıq qoymayın, yoxsa boynunuzun dərisi qırışar.
* Üzün dərisini çirkin göstərən ölmüş dəri toxumalarıdır. Vaxtaşırı bu toxumalardan azad olmaq lazımdır. Dəridə olan ölü toxumaları sərt liflərlə təmizləmək olmaz. Skrablar dərini belə toxumalardan təmizləmək və yeni dərinin üzə çıxmasına şərait yaratmaq üçündür.
* Ömrünü tamamlayan saçların 1-2%-nin töküldükdən sonra yerinə yeni tük gəlir.
* Saç tökülməsinin qarşısını almaq üçün ilk növbədə onun əmələgəlmə səbəbini aradan qaldırmaq lazımdır.
* Ayaq dırnaqlarında olan göbələklərdən xilas olmaq üçün alma sirkəsini ilıq suya töküb ayaqları vanna eləmək lazımdır. Bu proseduru göbələk əlamətləri aradan qalxana qədər bir neçə dəfə etmək lazımdır.

# Restoranda yeməklərə dərman qatan aşpaz tutuldu



**Müştərilərin yeməklərinə dərman əlavə edən 2 aşpaz saxlanılıb. Çinin Nantune restoranında çalışan aşpazlar vaxtı keçmiş və köhnə məhsullardan yemək hazırladıqları üçün müştərilərin zəhərlənməməsi üçün yeməklərə ishal dərmanı və xüsusi toz qatırdılar ki, yemək mədə-bağırsağa neqativ təsir etməsin.**

İşin üstünü işə təzə gələn işçi açıb. O, mətbəxdə dərman qoxusu hiss edib və aşpazların yeməklərə nəsə səpdiyini görüb. Hər iki aşpaz həbs edilib və restoran cərimələnib. Aşpazlara 2 il həbs verilib. Onların etirafına görə, 1620 yeməyə belə dərman qatıblar.



## Yaşlılar üçün ən yaxşı şirniyyat: sümükləri gücləndirir, qan təzyiqini aşağı salır

**“Yaşlı insanlar üçün ən sağlam şirniyyat halvadır”. Bunu diyetoloq Yelena Solomatina deyib. Halvanın tərkibində mədə-bağırsaq traktının düzgün işləməsi üçün zəruri olan lif var. “Halvanın bir neçə növü var ki, onların hər biri faydalı maddələrlə zəngindir. Məsələn, günəbaxan halvasının tərkibində E vitamini var ki, bu da ürək və damar xəstəliklərinin inkişaf riskini azaldır, həmçinin qocalma prosesini ləngidir.**

Fıstıq halvası sümüklərin, dərinin, dişlərin, vətərlərin və qığırdaqların sağlamlığı üçün zəruri olan rekord miqdarda silisium ehtiva edir. Kətan halvası xolesterol səviyyəsini sabitləşdirən və iltihablı proseslərin qarşısını alan çoxlu miqdarda omeqa-3 yağ turşularını ehtiva edir. Küncüt halvasında kalsium, badam halvasında isə çoxlu maqnezium var ki, bu da qan təzyiqini sakitləşdirir və aşağı salır.

Əks göstərişlərə gəlincə, halva şəkərli diabet xəstələri, piylənmə və insulin müqaviməti olan insanlar tərəfindən istehlak edilməməlidir".

# Yatmazdan əvvəl bunu qətiyyən etməyin



**Qastroenteroloq və hepatoloq Lyudmila Sosnina yatmazdan əvvəl yemək yeməyin sağlamlıq problemlərinə yol açdığını bildirib. O, yeməyin mədədə iki-üç saat qaldığını, sonra isə nazik bağırsağa keçərək burada qida maddələrinin həzm olaraq sovrulduğunu qeyd edib. Yatmazdan əvvəl çox yemək, gecə boyunca beyin fəaliyyətini, immuniteti və hormonal balansı poza bilər. Həmçinin gecə vaxtı tüpürcək və mədə şirəsinin aktivliyi azalır ki, bu da düzgün həzm və qida maddələrinin mənimsənilməsini çətinləşdirir. Bu, diabet, ürək-damar xəstəlikləri və həzm problemlərinə səbəb ola bilər.**

Sosnina yeməyin yatmazdan iki-üç saat əvvəl bitirilməsini tövsiyə edir.

Əgər güclü aclıq hissi yaranarsa, sürətlə həzm olunan yüngül proteinli qidalar seçmək məsləhətdir.

## X və Y nəsillərinin xərçəngə tutulma riski daha yüksəkdir

**ABŞ-da aparılan araşdırmalara görə, 1965-1980-ci illər arasında doğulmuş “X nəsli” və 1981-1996-cı illərdə doğulan “Y nəsli” əvvəlki nəsillərə nisbətən daha yüksək xərçəng riskinə malikdir.**

Medicina.az xəbər verir ki, “The Lancet Public Health” jurnalında dərc olunan araşdırma çərçivəsində Amerika Xərçəng Cəmiyyətinin alimləri 2000-ci ildən 2019-cu ilə qədər 34 növ xərçəng diaqnozu qoyulmuş, 25-84 yaş arasında olan 23 milyondan çox xəstənin məlumatlarını təhlil ediblər.

Tədqiqatçılar X və Y nəsillərinin əvvəlki nəsillərlə müqayisədə döş, mədəaltı vəzi və mədə xərçəngi də daxil olmaqla, 17 xərçəng növünə tutulma riskinin artdığını müəyyən ediblər.

Bundan əlavə, 1920-ci ildən bəri hər nəsildə 17 xərçəng növündən 8-nin riskinin tədricən artdığı müəyyən edilib. Tədqiqat çərçivəsində 1990-cı ildə doğulanlarda yumurtalıq xərçəngi riskinin yaşlı insanlara nisbətən 12 faiz, uşaqlıq yolu xərçəngi riskinin isə 169 faiz daha yüksək olduğu diqqət çəkib.

Tədqiqatçılar həmçinin 1990-cı ildə doğulanlarda mədəaltı vəzi, böyrək və nazik bağırsaq xərçənginə tutulma nisbətinin də 1955-ci ildə doğulanlara nisbətən 2-3 dəfə çox olduğunu bildiriblər. Araşdırmanın müəlliflərindən olan Əhməd Cemal bu nəticələrin X və Y nəsillərində artan xərçəng riskinin səbəbləri və həll yollarının tapılmasının vacibliyini vurğuladığını qeyd edib.

“Dövlət səviyyəsində effektiv müdaxilələr edilməzsə və gənc əhalidə xərçəng riski insanlar qocaldıqca gələcəyə daşınarsa, xərçəngə qarşı onilliklər ərzində əldə etdiyimiz irəliləyişləri dayandıracaq və ya geriyə getməyimizə səbəb olacaq bir "xərçəng epidemiyası" ilə üzləşə bilərik", - deyə tədqiqatçı xəbərdarlıq edib.

## Hər gün pivə içən kişinin süd vəziləri 5 ölçü böyüdü



**Pivənin kişi bədənini qadın formasına salması barədə çoxdan fikirlər yayılıb. Qastroenteroloq Yekaterina Kaşux bir pasiyentin pivədən süd vəzisinin böyüyüb, qadın forması və ölçüsü alması faktını bölüşüb. "Pivədə həqiqətən fitoestrogenlər var, onlar qadın hormonuna yaxındır. Lakin bu konsentrasiya o qədər azdır ki, kişilərdə dəyişiklik yaratmır.**

Bitki tərkibli fitoestrogenlər kişini qadına çevirmir. Pivədən süd vəzisi də çıxmır.

Amma bütün digər spirtli içkilər kimi pivənin də kişi cinsiyyət sağlamlığına zərəri istisnasız deyil. Alkoqol ən vacib kişi hormonu olan testosteronu aşağı salır, spermanın aktivliyini azaldır.

Təcrübəmizdə hər gün 5 butulka pivə içən kişinin süd vəzilərinin böyüməsi faktı var, amma bu, artıq hiper təsirdir. Əgər kişi gündə 1 şüşə pivə içərsə, onda heç bir xarici görünüş dəyişikliyi ola bilməz".

## 38 yaşlı qadın həyatdan yorulub qocalar evinə getdi



**Çində 38 yaşlı qadın həddən artıq yorulduğu və özünü qoca hiss etdiyi üçün qocalar evinə yerləşmək üçün müraciət edib. Mon Yan adlı qadın xroniki tükənmə diaqnozu ilə xəstəxanada müalicə aldıqdan sonra həkimlər ona uzun müddət dincəlməyi tövsiyə edib.**

Həyatdan bezən və artıq əvvəlki kimi yaşamaq istəməyən qadın qocalar evinə yerləşib, səs-küydən uzaqlaşıb, özünü bərpa etmək qərarına gəlir.

“Şəhərdə evimdə küçədəki kiçik bir səsə oyanırdım, yata bilmirdim. İşə də getmirdim, tez-tez xəstələnirdim. Burada isə mən səhər də, gecə də rahatam”.

Gənc olduğuna görə dövlət onun qocalar evində yaşayış xərcini çəkmədiyi üçün Yan öz hesabına burada qalır. O, hər ay bura 350 dollar ödəyir. Pansionat maral, ceyran, gözəl quşlarla dolu olan bağdan ibarətdir. Yan burada 6 aya çox dəyişdiyini etiraf edir.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABÌROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhərì, R.Rüstəmov küçəsì 2528-cì məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLÌ

“Yenì Müsavat”ın kompüter mərkəzìndə yığılıb, səhìfələnìb, “Son dakika” MMC-nin mətbəəsìndə çap edilìb. Əlyazmalar gerì qaytarılmır. Müəlliflərlə redaksìyanın mövqeyì uyğun gəlməyə bìlər.

Lisenziya N: B 114
SAYI: 1.500